RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 263 (9142) CÜMƏ, 2 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyevin ədalət dərsi

## Ermənistan, Fransa və antiazərbaycançı şəbəkənin digər üzvləri bundan nəticə çıxarmalıdırlar

Keçmiş Minsk qrupunun həmsədri kimi 30 il Ermənistana havadarlıq edən ölkənin prezidenti bir həftədə 3 dəfə İlham Əliyevə zəng edib təmas xəttində gedən döyüşlərdən narahat olduğunu deyərək atəşkəsin bərpa edilməsinə və Azərbaycanı tezliklə danışıqlar aparmağa çağırırdı. "Dəmir yumruğ"unu havaya qaldıran İlham Əliyev isə Fransa prezidentinə təmkinli şəkildə başa salırdı ki, artıq gecdir, Azərbaycan bu sözləri 30 il özü deyib, özü də eşidib. Çünki turist kimi bölgəyə səfər edən həmsədrlər bu prosesdə yalnız Ermənistana cəzasıqlıq mühitindən yararlanmaq imkanı yaratmışdılar. İllərlə sülh istəyən Azərbaycan isə sonda BMT TŞ-nin məlum 4 qətnaməsini özü həll etmək məcburiyyətində qaldı.

→ 3

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

*Hörmətli cənab Sədr!*

Çin Xalq Respublikasının keçmiş Sədri, görkəmli dövlət xadimi Tszyan Tszeminin vəfatı xəbəri bizi son dərəcə kədərləndirdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan ilə Çin arasında dövlətlərarası əlaqələrin və əməkdaşlığın təməlinin qoyulmasında Tszyan Tszeminin böyük xidmətləri olmuşdur. Biz Azərbaycan-Çin münasibətlərinin inkişafına Tszyan Tszeminin verdiyi töhfəni yüksək qiymətləndiririk.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Çin xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 dekabr 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında Azərbaycan-Qırğız İnkişaf Fondunun yaradılması haqqında" 2022-ci il oktyabrın 11-də Bişkek şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2022-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Qırğız Respublikasının Nazirlər Kabineti arasında bitki karantini sahəsində əməkdaşlıq haqqında" 2022-ci il oktyabrın 11-də Bişkek şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2022-ci il*

## Siyasi riyakarlıq

### Milli Məclis Fransa Milli Assambleyasının qəbul etdiyi qətnaməni qəti şəkildə rədd edir

Fransa Senatının və Milli Assambleyasının qəbul etdiyi qətnamələr bu ölkənin qanunverici orqanlarının siyasi avantüra meydanına çevrilməsindən xəbər verir. Fransa Milli Assambleyasının bu qətnaməsini də qəti şəkildə rədd edir və siyasi riyakarlıq kimi qiymətləndiririk.

→ 2

## Əhəmiyyətsiz kağız parçası

### Fransanın qərəzli qətnaməsinin heç bir təsir gücü yoxdur

Təbii ki, bunun Azərbaycan əleyhinə heç bir effekti olmayacaq. Ölkəmiz 44 günlük Vətən müharibəsindən sonra daha güclü dövlətə çevrilib.

→ 3

## Fransa Ermənistanı məhvə sürükləyir

### Bu "dəstək" İrəvanı daha böyük məğlubiyyətə aparacaq

Fransa indi də öz siyasi mənafeyi naminə iki ölkə arasında sülh əldə olunması prosesinə çirkin yollarla əngəl olmağa çalışır.

→ 4

## Fransanın Azərbaycandakı müvəqqəti işlər vəkili XİN-ə çağırıldı



Dekabrın 1-də Fransanın Azərbaycandakı müvəqqəti işlər vəkili Jülyen Lö Lan Xarici İşlər Nazirliyinə çağırılıb və noyabrın 30-da bu ölkənin parlamentinin aşağı palatasında (Milli Assambleya) Azərbaycan əleyhinə qəbul edilmiş yalan və iftira dolu qətnamə ilə bağlı ona qəti etiraz bildirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə bir müddət əvvəl Senatda qəbul edilmiş qətnamə kimi, Milli Assambleyanın bu qətnaməsinin də Fransanın Azərbaycana qarşı növbəti təxribatı olduğu qeyd edilib.

Fransanın ölkəmizə qarşı beynəlxalq hüquqa zidd, qərəzli və birtərəfli mövqeyinin əks olunduğu bu qətnamədə irəli sürülmüş iddiaların hər biri tutarlı şəkildə cavablandırılıb.

Fransanın bir sıra digər addımları kimi, bu qətnamənin də Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesinə, habelə bölgədə sülh və əmin-amanlığın bərqərar olması səylərinə zərbə vurmaq cəhdi olduğu diqqətə çatdırılıb.

→ 2

## Qərəzli qətnamələr regionda sülh prosesinə mane olur

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Fransa parlamentinin aşağı palatasında Azərbaycan əleyhinə qəbul edilmiş qətnaməyə münasibət bildirib. Bu barədə AZƏRTAC-a ombudsman aparatından məlumat verilib.

Bildirilib ki, Fransa parlamentinin aşağı palatası tərəfindən 2022-ci il noyabrın 30-da ölkəmiz əleyhinə qəbul edilmiş, özündə heç bir həqiqəti əks etdirməyən təxribat xarakterli qərəzli qətnamə Azərbaycanla Ermənistan arasında münasibətlərin gərginləşdirilməsinə və sülhyaratma prosesinə ciddi zərər verməkdədir.

→ 2

## Ərzaq təhlükəsizliyi gündəmdədir

Dekabrın 1-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq və Aqrar siyasət komitələrinin birgə iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev iclası açaraq gündəliyə 3 məsələnin daxil edildiyini bildirib. Komitə sədri gündəliyin birinci məsələsi olan Gömrük Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında",



"Baytarlıq haqqında", "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim edib. O, diqqətə çatdırıb ki, qanun layihəsi bir neçə ay bundan əvvəl qəbul edilmiş "Qida təhlükəsizliyi haqqında" qanunun icrası ilə əlaqədar hazırlanıb.

→ 2

◆ Tarixi araşdırma

# Şuşanın özü də, adı da qəhrəmanlıqla qaytarıldı

### *Erməni saxtakarlığı isə tarixin arxivinə atıldı*

→ 5

# Siyasi riyakarlıq

## Milli Məclis Fransa Milli Assambleyasının qəbul etdiyi qətnaməni qəti şəkildə rədd edir

"Fransa Senatının 2022-ci il noyabrın 15-də məlum qətnaməni qəbul etməsinin ardınca bu ölkənin Milli Assambleyası da noyabrın 30-da Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil etmiş, beynəlxalq hüququn normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirən, dövlətimizin ərazi bütövlüyünü və suverenliyini hədəf alan məkrli, qeyri-obyektiv və ədalətsiz bir akt qəbul etmişdir. Fransa Senatının və Milli Assambleyasının qəbul etdiyi qətnamələr bu ölkənin qanunverici orqanlarının siyasi avantüra meydanına çevrilməsindən xəbər verir. Fransa Milli Assambleyasının bu qətnaməsini də qəti şəkildə rədd edir və siyasi riyakarlıq kimi qiymətləndiririk".

Bu fikirlər Azərbaycan Respublikası Milli Məclisinin Fransa Milli Assambleyasının qəbul etdiyi qətnamə ilə bağlı 2022-ci il 1 dekabr tarixli açıqlamasında yer alıb.

Milli Məclisin Mətbuat xidmətinin yaydığı məlumata əsasən, açıqlamada həmçinin qeyd edilib: "Danılmaz faktdır ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın işğalı dövründə münaqişənin dinc yolla nizama salınması üçün göstərilən səylərin nəticə verməməsinin əsas səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, vasitəçilik vəzifəsini öhdəsinə götürən dövlətlər, xüsusən Fransa tərəfindən ikili standartlara yol verilməsi, işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulması, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməməsi, beynəlxalq qaydalara meydan oxuyan Ermənistan dövlətinə münasibətdə lazımi qətiyyətin göstərilməməsi, bir sıra hallarda isə onun açıq-aşkar şirnikləndirilməsi olmuşdur. Təəssüflə qeyd edilməlidir ki, bu gün Fransanın hakimiyyət orqanlarının, o cümlədən parlamentin hər iki palatasının təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçməsinə, münasibətlərin normallaşmasına zərbə vurur, qonşu dövlətlərə qarşı ərazi iddiaları üzərində qurulan erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edir, revanşist və təcavüzkar separatçı qüvvələri həvəsləndirir, regionu yeni təhlükələrə yönləndirir. Populist siyasi baxışlar əsasında Fransanın daxili siyasi gündəliyi və müxtəlif lobbi dairələrinin maraqlarının Cənubi Qafqaz regionuna daşınması qəbuledilməzdir.

Qətnamədə Ermənistanın Azərbaycana qarşı 30 il davam edən işğalçılıq və etnik təmizləmə siyasəti, Xocalı soyqırımı, 44 günlük müharibə zamanı Azərbaycanın şəhərlərinin ballistik raketlərlə atəşə tutulması, işğal dövründə ölkəmizin 9 şəhəri və 300-dən artıq kəndinin viran edilməsi, total minalama və mina terroru siyasəti, 4000 nəfərə yaxın vətəndaşımızın itkin düşmüş hesab olunması, kütləvi məzarlıqların yerləri barədə Ermənistan tərəfindən məlumat verilməməsi kimi faktların yer almaması onun ucuz siyasi sifarişdən başqa bir şey olmadığını açıq şəkildə göstərir.

Digər tərəfdən, Azərbaycanı Ermənistana qarşı müharibə cinayətləri törətməkdə əsassız ittiham edən Fransanın öz tarixi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə zəngindir. Dünyanın müxtəlif bölgələrində 50-dən artıq dövlətin ərazisini işğal etmiş, sərvətlərini talamış, xalqlarını uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmiş və açıq şəkildə qul ticarəti ilə məşğul olmuşdur. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan ləkədir.

Fransa hələ də dekolonizasiya kateqoriyasına aid edilən bir sıra əraziləri qanuni sahiblərinə qaytarmır və neokolonializm siyasəti əsasında həmin ərazilərin anneksiyası xəttini yürüdür. Fransada irqçilik, islamofobiya və antisemitizmin ifrat həddə çatdığı artıq danılmaz bir faktdır. Fransa siyasətçiləri unutmamalıdırlar ki, müstəmləkəçilik insanlıq əleyhinə cinayətdir.

Azərbaycan Respublikası müstəqil dövlət olaraq, bütün ölkələrlə münasibətləri bərabərhüquqluluq və qarşılıqlı hörmət əsasında inkişaf etdirir. Hər kəs anlamalıdır ki, 2020-ci ilin payızında xalqımızın 44 günlük Vətən müharibəsində əldə etdiyi böyük Zəfər Azərbaycan Respublikasının ərazi bütövlüyünün və haqq-ədalətin bərpasını təmin etmişdir. Əzəli tarixi torpaqları olan Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad etməklə Azərbaycan dövləti BMT-nin və digər beynəlxalq təşkilatların qərarlarının icrasını öz gücü ilə təmin etmişdir. Beləliklə, Ermənistanın Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasətinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı tarixi missiya uğurla yerinə yetirilmişdir.

Bununla əlaqədar olaraq Fransa parlamentinin üzvləri Cənubi Qafqazda baş verən hadisələrin təhrif edilməsi praktikasından əl çəkməli, Azərbaycanla Ermənistan arasında sivil dövlətlərarası münasibətlərin qurulması üçün yaranmış tarixi imkanın qarşısını ala bilən ritorikaya və hərəkətlərə son qoymalıdırlar. Fransa Milli Assambleyasının Fransanın müstəmləkəçilik tarixinə ədalətlə yenidən baxması və ona düzgün siyasi-hüquqi qiymət verməsi, Fransada tüğyan edən irqçilik, islamofobiya və antisemitizm hallarının qarşısını almaq üçün üzərinə düşən öhdəliklərini yerinə yetirməsi və sadə Fransa vətəndaşlarının problemlərini dinləməsi daha faydalı və səmərəli olardı".

*"Azərbaycan"*

# Azərbaycanın xarici işlər naziri bir sıra görüşlər keçirib



Dekabrın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Nazirlər Şurasının Lodzda keçirilən 29-cu iclası çərçivəsində Norveç Krallığının xarici işlər naziri Anniken Huitfeldt ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, həmçinin regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından keçən 30 il ərzində müxtəlif istiqamətlərdə, xüsusilə də energetika, neft və qaz sənayesinin inkişafı sahəsində münasibətlərin inkişaf etdiyini bildirib.

Nazir Ceyhun Bayramov həmçinin postmünaqişə dövründə regional vəziyyət, Azərbaycanın bölgədə sülh və quruculuq səyləri, Ermənistan tərəfinin təxribatları, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməməsi, o cümlədən mina təhlükəsi barədə qarşı tərəfi məlumatlandırıb.

Nazir Anniken Huitfeldt cari ildə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə keçirilən tədbirlərin əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verdiyini qeyd edib. Nazir Anniken Huitfeldt Norveçin bölgədə sülh və təhlükəsizliyə qarşı təhdid törədən gərginliyin azaldılması, sülhün bərqərar olunması istiqamətində səyləri alqışladığını vurğulayıb. Bu xüsusda Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasının vacibliyi ifadə olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Dekabrın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Polşanın Lodz şəhərində keçirilən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Xarici İşlər Nazirləri Şurasının 29-cu iclasında iştirakı çərçivəsində Rumıniyanın xarici işlər naziri Boqdan Auresku ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə Azərbaycan-Rumıniya ikitərəfli strateji tərəfdaşlığının prioritet istiqamətləri, energetika, nəqliyyat, tranzit, iqtisadi-ticarət və s. istiqamətlərdə, habelə çoxtərəfli platformalarda əməkdaşlıq məsələləri ətraflı müzakirə edilib. Ölkələrimiz arasında artan yüksəksəviyyəli səfərlər və siyasi dialoqdan məmnunluq ifadə olunub.

Nazir Ceyhun Bayramov həmkarına postmünaqişə dövründə bölgədə cari vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi, habelə sülh sazişinin hazırlanması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar barədə məlumat verib. Nazir mövcud mina təhlükəsini, bunun yaratdığı ciddi humanitar fəsadları diqqətə çatdırıb.

Nazir Auresku bu il Azərbaycan və Rumıniya arasında strateji tərəfdaşlığın böyük əhəmiyyət kəsb etdiyini, energetika və enerji təhlükəsizliyi sahəsində praktiki əməkdaşlığın daha da inkişaf etməsinin vacib olduğunu qeyd edib.

Görüşdə eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlər və regional təhlükəsizlik vəziyyəti müzakirə olunub.

* * *

Dekabrın 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Polşanın Lodz şəhərində keçirilən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Xarici İşlər Nazirləri Şurasının 29-cu iclasında iştirakı çərçivəsində Avropa İttifaqının (Aİ) xarici və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Cozef Borel ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və Avropa İttifaqı arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri, münasibətlərin gələcək perspektivləri, habelə energetika sahəsində əldə edilmiş razılıqların icrası müzakirə olunub.

Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin irəlilədilməsi istiqamətində səylər və Avropa İttifaqının rolu barədə fikir mübadiləsi aparılıb.

Ermənistanın proses çərçivəsində maneələr törətdiyi, liderlər səviyyəsində əldə edilmiş razılıqlar üzrə öhdəliklərdən boyun qaçırdığı, danışıqlar prosesi barədə yanlış təəssürat yaratdığı diqqətə çatdırılıb. Nazir həmçinin işğaldan azad olunmuş ərazilərdə mövcud mina təhlükəsinə bir daha diqqət yönəldib.

Cozef Borel öz növbəsində Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlıq münasibətlərinin böyük inkişaf potensialının olduğunu qeyd edib. Avropa İttifaqının normallaşma prosesi üzrə səylərə dəstəyini davam etdirmək niyyətində olduğunu bildirib.

Tərəflər görüşdə qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Qərəzli qətnamələr regionda sülh prosesinə mane olur

*Əvvəli 1-ci səh.*

Hələ 15 gün əvvəl Fransa Senatında qəbul olunmuş "Azərbaycana qarşı sanksiyaların tətbiqi və onun Ermənistan ərazisindən dərhal geri çəkilməsi, 2020-ci il 10 noyabr tarixli razılaşmaya riayət etməsi tələbi və iki ölkə arasında dayanıqlı sülhün bərqərar olmasına yönəlmiş bütün təşəbbüslərin təşviq edilməsi" adlı qətnamədən sonra yenidən ölkəmiz əleyhinə qətnamənin qəbulu Fransa Senatının beynəlxalq hüquqa hörmətsizliyini bir daha sübut edir.

"Hesab edirik ki, bir-birinin ardınca belə qərəzli qətnamələrin qəbulu nəinki Azərbaycanla Ermənistan arasında sülh prosesinə mane olur, regionda siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafına mənfi təsir göstərir.

Bu qətnamə ilə Fransa Ermənistanın Azərbaycana qarşı etnik və dini nifrət zəminində həyata keçirdiyi işğalçılıq siyasətini dəstəkləyir, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş ümumbəşəri prinsiplərindən olan suverenlik və ərazi bütövlüyü prinsiplərinə qarşı çıxır. 30 il müddətində başqa bir ölkənin ərazisini işğal etmiş Ermənistanı müdafiə etmək Fransa hökumətinin insan hüquq və azadlıqlarını heçə saydığının açıq təzahürüdür.

Bir daha Fransa parlamentinin aşağı palatasının ölkəmizə qarşı ədalətsiz mövqe nümayiş etdirməsini qəti şəkildə pisləyir, onların bu hərəkətini təxribatçı addım kimi qiymətləndirirəm. Eyni zamanda Fransanı regionda milli ədavəti qızışdırmaq və aparılan bərpa-quruculuq proseslərinə mane olmaq istiqamətindəki fəaliyyətindən əl çəkməyə çağırıram", - deyə ombudsman qeyd edib.

# Fransanın Azərbaycandakı müvəqqəti işlər vəkili XİN-ə çağırıldı

*Əvvəli 1-ci səh.*

Qətnamə üzrə dinləmələrdə Fransa hökumətinin nümayəndəsinin verdiyi açıqlamaların həmin qətnamənin də arxasında Fransa hökumətinin dayandığını, bu ölkənin ədalətli və bitərəf vasitəçi rolunda çıxış etmək iqtidarında olmadığını bariz şəkildə nümayiş etdirdiyi vurğulanıb.

Görüşdə qətnamənin Azərbaycan tərəfindən qətiyyətlə rədd olunduğu bildirilib və Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, onun daxili işlərinə müdaxilə olan addım və bəyanatlardan çəkinilməsi bir daha təkidlə tələb edilib.

Müvəqqəti işlər vəkili Jülyen Lö Lan bir müddət əvvəl Senatda qəbul olunmuş qətnamə kimi, Milli Assambleyada da qəbul edilmiş bu qətnamənin Fransa hökumətinin rəsmi mövqeyini əks etdirmədiyini, hökumətin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması üzrə danışıqları dəstəklədiyini bildirib. O, Azərbaycan tərəfinin mövqeyini aidiyyəti üzrə çatdıracağını əlavə edib.

# Azərbaycanla Pakistan arasında hərbi sahədə əməkdaşlıq genişlənir

Dekabrın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Amcad Xan Niazi ilə görüşüb.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə pakistanlı qonaqlar Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirələrini ehtiramla anıb, "Əbədi məşəl" abidəsi önünə əklil qoyublar.

General-polkovnik Z.Həsənov qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Xalqlarımız arasında ənənəvi dostluq və qarşılıqlı etimadın olduğunu, Azərbaycan-Pakistan əlaqələrinin və strateji tərəfdaşlığının yüksələn xətlə inkişaf etdiyini qeyd edib.

Pakistan İslam Respublikasının müdafiə nazirinin salamlarını çatdıran admiral M.A.X.Niazi ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində belə görüşlərin və qarşılıqlı əlaqələrin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycan, Pakistan və Türkiyənin iştirakı ilə ikitərəfli, eləcə də üçtərəfli birgə hərbi əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi xüsusi vurğulanıb.

Sonda ölkələrimiz arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

* * *

Bakıda Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov Pakistan İslam Respublikasının Hərbi Dəniz Qüvvələri komandanı admiral Muhammad Amcad Xan Niazinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, əvvəlcə Hərbi Dəniz Qüvvələrində rəsmi qarşılanma mərasimi keçirilib. Pakistan Hərbi Dəniz Qüvvələrinin komandanı fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himni səsləndirilib.

Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılan abidəsi önünə əklil qoyularaq xatirəsi ehtiramla yad edilib.

Sonra Pakistan nümayəndə heyətinin rəhbəri "Fəxri qonaqlar kitabı"nı imzalayıb.

Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral S.Bəkirov qonaqları salamlayaraq ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

Nümayəndə heyətinə Hərbi Dəniz Qüvvələrinin tarixi və fəaliyyəti haqqında geniş brifinq təqdim edilib.

Göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən admiral M.A.X.Niazi hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin daha da inkişaf etdirilməsi istiqamətində görülən işlərin əhəmiyyətini diqqətə çatdırıb.

Görüşdə Azərbaycanla Pakistan Hərbi Dəniz Qüvvələri arasında hərbi, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra hərbi gəmilərə baxış keçirilib, onların taktiki-texniki xüsusiyyətləri, həmçinin gəmi heyətinin yerləşməsi və qidalanması ilə bağlı nümayəndə heyətinə məlumat verilib.

# *Fransa XİN:* “Parlamentin qətnamələri hökumətin rəsmi mövqeyini əks etdirmir”

**Parlamentin təşəbbüsü olan mətn Fransa hökumətinin rəsmi mövqeyini əks etdirmir və bu, hakimiyyət bölgüsü prinsipinə uyğun olaraq müstəqil şəkildə qəbul edilib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Fransa Senatında və Milli Assambleyasında qəbul edilmiş qərəzli qətnamə layihələri ilə bağlı suala Fransanın Xarici İşlər Nazirliyinin cavabında bildirilib.

Qeyd olunub ki, Fransa hökumətinin mövqeyi məlumdur və nazir tərəfindən dəfələrlə, xüsusilə də noyabrın 29-da ifadə edilib. Yəni Fransa sülhün bərpası üçün tərəfləri danışıqlarda irəliləməyə təşviq etməkdə davam edir.

Məhz bu ruhda Fransa Prezidenti Azərbaycan Prezidenti və Ermənistanın baş nazirini Praqada bir araya gətirdi. Bu görüş Avropa İttifaqının müşahidə missiyasının Ermənistan ərazisində yerləşdirilməsi ilə nəticələndi", - deyə açıqlamada vurğulanıb.

Xatırladaq ki, Milli Assambleyanın 577 üzvündən 256-sı bu qətnamənin səsverməsində iştirak edib. Qətnamə müzakirələri zamanı zal demək olar ki, boş olub. Qətnaməyə səsvermə zamanı sənədlə bağlı müzakirələri dinləməyən deputatlar zalda peyda olaraq "ermənipərəstlik" jesti ediblər.

**◆ Milli Məclisin komitələrində**

# Ərzaq təhlükəsizliyi gündəmdədir

*Əvvəli 1-ci səh.*

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə ətraflı məlumat verərək, bildirib ki, "Qida təhlükəsizliyi haqqında" qanun 2023-cü il yanvarın 1-də qüvvəyə minməsi ilə "Yeyinti məhsulları haqqında" qanun qüvvədən düşür. Ona görə də təqdim olunan layihədə "Yeyinti məhsulları haqqında" qanunda ərzaq təhlükəsizliyi ilə bağlı olan müddəalar "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna köçürülür. Komitə sədri hazırkı şəraitdə prioritet məsələyə çevrilmiş əhalinin ərzaq təhlükəsizliyi ilə bağlı müddəalar barədə ətraflı məlumat verib, dövlət tərəfindən ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işlərdən, həyata keçirilən dövlət proqramlarından danışıb, Azərbaycanda ərzaq məhsulları ilə təminatın yüksək səviyyədə olduğunu qeyd edib. O, təklif olunan əlavə və dəyişikliklərin istehlakçıların hüquqlarının müdafiəsi, ərzaq məhsullarının keyfiyyətinin artırılması, ən əsası ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində əhəmiyyətindən söz açıb, layihənin dövlət ərzaq ehtiyatlarının təmini, dövlət ərzaq balansının tutulması üçün hansı imkanlar yaratdığını şərh edib. Komitə sədri digər əlavə və dəyişikliklərin, uyğunlaşdırma xarakterli düzəlişlərin mahiyyətini də açıqlayıb.

Sonra kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova layihədə təsbit olunmuş ərzaq bazarının dövlət tənzimlənməsi ilə bağlı məsələlərdən danışıb, xüsusən də ərzaq balansının tərtibi üçün müəyyən edilmiş məhsullara dair məlumatların formalaşması, toplanması və təqdim edilməsi qaydaları haqqında məlumat verib.

Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov ərzaq balanslarının tərtibi ilə bağlı ölkəmizin təcrübəsi, onun metodologiyası barədə izahat verib, statistik məlumatların toplanması, özəl sektorun statistik hesabatlılığa cəlb olunması qaydalarına aydınlıq gətirib.

Dövlət Ehtiyatları Agentliyinin sədr müavini Hidayət Əzimov təmsil etdiyi qurumun fəaliyyət istiqamətlərindən, dövlət başçısı tərəfindən qarşıya qoyulan vəzifələrdən, gördüyü işlərdən danışıb, Dövlət Ehtiyatları Agentliyi tərəfindən Dövlət Ehtiyatları Konsepsiyasının, "Dövlət ehtiyatları haqqında" qanun layihəsinin, ölkənin istehlak bazarında strateji əhəmiyyətli malların siyahısının hazırlanması barədə məlumat verib.

Sonra Qida Təhlükəsizliyi Agentliyinin Aparat rəhbəri Elxan Mikayılov "Qida təhlükəsizliyi haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədar bir çox normativ-hüquqi aktlara dəyişikliklər edilməsi zərurətindən danışıb. Bildirib ki, adıçəkilən qanunda qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların idxalı və ixracı ilə bağlı tələblərə uyğun olaraq Gömrük Məcəlləsinə müvafiq dəyişiklik edilməsi nəzərdə tutulub. O qeyd edib ki, insanların, həmçinin heyvanların həyat və sağlamlığının, habelə istehlakçıların hüquqlarının müdafiəsi üçün qida və yem məhsullarının təhlükəsizliyinin təmin edilməsi ilə bağlı bir sıra yeni anlayışların, tənzimləmə və nəzarət mexanizmlərinin də "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanuna əlavə edilməsi təklif olunub.

Bundan başqa, "sənəddə qida və yem məhsullarının idxalı və ixracı zamanı sağlamlıq sertifikatının verilməsi, qida obyektlərinin təsdiq olunması ilə bağlı dövlət rüsumunun məbləği və dövlət rüsumundan azadolmalar təklif olunub. Belə ki, obyektlərin və subyektlərin qeydiyyatı dövlət rüsumu tələb olunmadan aparılacaq, onların təsdiqi isə mikro və kiçik sahibkarlıq subyektləri üçün rüsumsuz, orta və iri subyektlər üçün isə 150 manat rüsum alınmaqla həyata keçiriləcək. Layihənin sahibkarların sənədləşmə işlərini yüngülləşdirən digər tərəfləri barədə də danışan Qida Təhlükəsizliyi Agentliyinin Aparat rəhbəri qeyd edib ki, sənədə əsasən ixrac olunan heyvan mənşəli qida məhsullarını artıq yalnız 1 sertifikatla ixrac etmək mümkün olacaq.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin şöbə müdiri Elmir Bağırovun layihə ilə bağlı fikirləri dinlənildikdən sonra qanun layihəsinin müzakirəsi aparılıb.

Sənədin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, deputatlar Vahid Əhmədov, Emin Hacıyev, Rüfət Quliyev, Elnur Allahverdiyev, Azər Badamov, Aydın Hüseynov, İqbal Məmmədov, Müşfiq Cəfərov çıxış ediblər, layihə ilə bağlı fikirlərini bildiriblər, suallarını səsləndiriblər.

Sonra nazir müavini İlhamə Qədimova, Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov, Dövlət Ehtiyatları Agentliyinin sədr müavini Hidayət Əzimov, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin şöbə müdiri Elmir Bağırov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olunub.

Sonra komitə sədri Tahir Mirkişili qalan iki məsələ - "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib.

O bildirib ki, qanun layihələri mobil cihazların qeydiyyatının aparılmasının hüquqi əsaslarını müəyyən edir və qeydiyyatın aparılmasından yayınmaq məqsədilə mobil cihazın İMEİ (International Mobile Equipment Identification) nömrəsinin dəyişdirilməsinin və ya surətinin köçürülməsinin, habelə İMEİ nömrələri mobil cihazların qeydiyyat sisteminin qara səhifəsində olan mobil cihazlara mobil operator tərəfindən telekommunikasiya xidmətlərinin göstərilməsinin qadağan edilməsi və müvafiq məsuliyyətin nəzərdə tutulması ilə bağlıdır.

Hər iki qanun layihəsi nəzərdən keçirilərək ayrı-ayrılıqda səsə qoyulub və birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda deputatlar Mahir Abbaszadə, Məzahir Əfəndiyev, Anar Məmmədov, Məşhur Məmmədov və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

## Fransa Ermənistanın timsalında terroru dəstəkləyir

# İlham Əliyevin ədalət dərsi

### Ermənistan, Fransa və antiazərbaycançı şəbəkənin digər üzvləri bundan nəticə çıxarmalıdırlar

Azərbaycana qarşı isterik siyasi kursunu davam etdirən Fransa hər zamankı ampluasında qalaraq boş-boş iddialarından əl çəkmir. Bu ölkənin parlamentinin Senatı da, aşağı palatası da yalnız vaxtını ədalətsiz, qərəzli qətnamələr qəbul etməklə keçirir. Qəbul etdikləri kağız parçalarını isə hansısa ölkəyə qarşı təzyiq metodu kimi "qiymətləndirib" əvəzində hansısa prosesi öz xeyirlərinə yönəlik dəyişdirməyə cəhd edirlər.

#### Azərbaycanla təhdid dili ilə danışmaq mümkünsüzdür

Amma nə qədər "çalışsalar" da, bütün məkrləri, qərəzləri, iftiraları tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycana zərrə qədər də təsir göstərmir. Bunu təkcə 44 günlük Vətən müharibəsi başlayan gündən sonadək Fransanın ortaya qoyduğu ermənipərəst mövqeyə Müzəffər Ali Baş Komandan İlham Əliyevin ən layiqli formada verdiyi cavablar bir daha təsdiqləyir.

Keçmiş Minsk qrupunun həmsədri kimi 30 il Ermənistana havadarlıq edən ölkənin prezidenti bir həftədə 3 dəfə İlham Əliyevə zəng edib təmas xəttində gedən döyüşlərdən narahat olduğunu deyərək atəşkəsin bərpa edilməsinə və Azərbaycanı tezliklə danışıqlar aparmağa çağırırdı. "Dəmir yumruğ"unu havaya qaldıran İlham Əliyev isə Fransa prezidentinə təmkinli şəkildə başa salırdı ki, artıq gecdir, Azərbaycan bu sözləri 30 il özü deyib, özü də eşidib. Çünki turist kimi bölgəyə səfər edən həmsədrlər bu prosesdə yalnız Ermənistana cəzasıqlıq mühitindən yararlanmaq imkanı yaratmışdılar. İllərlə sülh istəyən Azərbaycan isə sonda BMT TŞ-nin məlum 4 qətnaməsini özü həll etmək məcburiyyətində qaldı.

Bu, İlham Əliyevin hər zaman Ermənistanı himayə edən Fransaya, onun prezidentinə verdiyi birinci ədalət dərsi oldu. Azərbaycan Prezidenti İkinci Qarabağ müharibəsinin qalib komandanı kimi bir daha Ermənistanın havadarlarına, xüsusən də Fransaya çatdırdı ki, onun sözü imzası qədər keçərlidir. E.Makrona da bəlli oldu ki, əsl sərkərdə qətiyyətli İlham Əliyevə hər hansısa təzyiq, göstəriş və ultimatum keçmir, onunla tələb və təhdid dili ilə danışmaq mümkünsüzdür.

#### İki qərəzli kağız parçası, pərdələnən ermənipərəst siyasətin açıq nümayişi

Son günlərdə isə Fransa parlamentinin ənənəsinə sadiq qalaraq Azərbaycana qarşı qərəzli qətnamələr qəbul etməsi, təbii ki, əvvəlki kampaniyanın tərkib hissəsi hesab edilməlidir. Çünki Fransanın gücü ancaq buna yetir.

Əvvəlcə senatın, sonra isə aşağı palatanın - Milli Assambleyanın qəbul etdiyi qətnamələr bir daha göstərdi ki, Fransa bu günə kimi pərdələdiyi ermənipərəst siyasətini tam açıq nümayiş etdirməyə başlayıb. Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu qətnamə bir daha Fransanın qərəzli siyasi mövqeyini beləliklə, bitərəf və ədalətli vasitəçi rolunda çıxış etmək iqtidarında olmadığını bariz şəkildə nümayiş etdirir.

Xatırladaq ki, İlham Əliyev bir müddət öncə, noyabrın 25-də Bakıda, ADA Universitetində "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfransda bu barədə ətraflı məlumat verərək bildirmişdi ki, ikinci qətnamənin qəbulu da gözləniləndi. Çox keçmədi ki, İlham Əliyevin konfransda dediyi fikirlər gerçəkləşdi. Prezident demişdi ki Fransa Senatının tamamilə qəbuledilməz və təhqiredici məlum qətnaməsinin qəbulundan sonra Fransa Milli Assambleyasının daha bir anti-Azərbaycan qətnaməni qəbul etməsi də gözlənilir. Bu, Fransanın Azərbaycana qarşı açıq-aşkar hücuma keçdiyini təsdiqləyən reallıqdır.

Maraqlı və gülüş doğuran məqam odur ki, qətnamədə Fransa hökuməti Azərbaycan qoşunlarının Ermənistan ərazisindən çıxarılmasına və Qarabağ ermənilərinin müstəqilliyini tanımağa çağırılır, cəzasızlığa qarşı mübarizə üçün Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etməsi təklif olunur.

Görün, kimlər cəzasızlığa qarşı mübarizədən danışırlar…

Tarixin ironiyasıdır ki, Fransa dövləti və Prezident Makron haqqədalətdən, beynəlxalq hüquqdan dəm vurur, eyni zamanda oxşar cinayətləri törətmiş Ermənistanın yanında olduqlarını təsdiqləyirlər. Bəs onda Afrikanın müxtəlif ölkələrində, Parisin özündə, Xocalıda qətliamlar törədənlər kimlərdir?! Fransanın həyata keçirtdiyi soyqırımı siyasəti və onun müdafiə etdiyi Ermənistanın soyqırımı siyasəti eyni ssenaridir. Burada sinxronluq diqqətdən yayınmır. Soyqırımı törətmiş Fransa dövləti bu gün açıq mətnlə Ermənistanı, eyni cinayəti törədən dövləti müdafiə edir.

#### Fransa sülh danışıqlarında iştirak edə bilməz

Bununla da elə Fransa Ermənistanla Azərbaycan arasında aparılan sülh danışıqlarında bitərəf olmadığını, ermənipərəstliyini özü öz əli və dili ilə təsdiq etdi.

Məhz bütün bunları görən, baş verənləri dərindən bilən İlham Əliyev də haqlı olaraq deyir ki, Fransa sülh danışıqlarında iştirak edə bilməz!

Məlum konfransda İlham Əliyev bu məsələyə bir daha aydınlıq gətirərək bəyan etdi ki, Brüsseldə baş tutmalı olan növbəti görüş alınmayacaq. Bunu pozan isə Ermənistandır: "Növbəti görüş dekabrın 7-də Brüsseldə keçirilməli idi. Çünki son görüşdə biz noyabr ayında görüşməyə qərar verdik. Lakin sonra - oktyabrın sonunda Prezident Putin Soçidə görüş təyin etdi. Ancaq dünən Hikmət Hacıyev mənə məlumat verdi ki, Prezident Şarl Mişelin ofisindən onunla əlaqə saxlayıblar. Bildiriblər ki, Paşinyan görüşə bir şərtlə razılıq verib ki, Prezident Makron da orada iştirak etsin. Təbii, bu da o deməkdir ki, Praqadan sonra baş verənlər səbəbindən o görüş keçirilməyəcək".

Daha sonra bunun ardınca Fransanın Frankofoniya Sammitində Azərbaycana qarşı hücum cəhdi oldu. Bunu qətiyyən qəbuledilməz adlandıran İlham Əliyev deyir ki, Frankofoniya humanitar təsisatdır və heç vaxt belə məsələlərlə məşğul olmayıb. Azərbaycanın bu qurumun üzvü olan dost ölkələrinin etirazından sonra daha bir antiazərbaycançı qətnamə faktiki olaraq ləğv edilib. Yəni onlar çox formal bir sənəd qəbul ediblər.

Prezident də məhz bu səbəbdən bildirdi ki, belə bir şəraitdə Fransa Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında iştirak edə bilməz. Onları bu formatdan kənarlaşdıran Azərbaycan yox, özləri oldu. Çünki nə Rusiya, nə də Amerika, keçmiş Minsk qrupunun hansısa həmsədri heç vaxt rəsmən, yəni müharibədən sonrakı dövrdə tərəf tutmayıb, yalnız Fransa buna əl atıb. Deməli, bu o deməkdir ki, dekabrın 7-də Brüssel görüşü baş tutmayacaq.

#### İlham Əliyevin Avropada ən arzu olunan şəxs kimi qəbul edilməsi Fransanı qıcıqlandırır

Son qərəzli qətnamədə daha bir maraqlı məqam enerji məsələsi ilə bağlıdır. Fransız parlamentarilər Azərbaycan qazı və neftinin idxalına qadağa tətbiq edilməsini təklif edirlər.

Bu, nəinki digər Avropa ölkələrində, elə Fransa ictimaiyyətində də gülüş doğurası məsələdir. Çünki dünya şahiddir ki, hazırda Avropanın əsas qaz təchizatçısı Azərbaycandır. Rusiya-Ukrayna müharibəsi səbəbindən rəsmi Moskvaya tətbiq edilən sanksiyalar ucbatından Avropanın əsas ümid yeri Azərbaycandır. Belə bir vəziyyətdə haqlı olaraq Avropa İttifaqı və onun üzvləri Azərbaycanın timsalında ən etibarlı tərəfdaşla əməkdaşlığa böyük önəm verirlər. Başqa cür desək, enerjiyə tarixdə görünməmiş dərəcədə ehtiyac duyan Avropa bu məsələdə Azərbaycanın etibarlı tərəfdaş olduğunu bilir və görür. Bu da təsadüfi deyil. Çünki indiyədək Azərbaycanla enerji sahəsində əməkdaşlıq edən bütün tərəflər ölkəmizin etibarlı tərəfdaşlığının şahidi olublar. Azərbaycanla əməkdaşlıq edən bütün təşkilatların və dövlətlərin rəhbərləri İlham Əliyevin vədinə sadiq prezident olduğunu yaxşı bilirlər. Azərbaycan əsl tərəfdaş kimi enerji təhlükəsizliyi ilə bağlı məsələlərdə həm yeni təşəbbüslər ortaya qoyur, həm də onların həyata keçirilməsini təmin edir. Bu mənada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri ilə bağlı daha da güclənən əməkdaşlıq məhz bu kimi mənəvi və sağlam təməllərə əsaslanır. Ona görə də İlham Əliyev beynəlxalq miqyasda siyasi lider olaraq ehtiramla qarşılanır.

Oktyabrın 6-da Praqada Azərbaycan televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev bildirmişdir ki, növbəti illərdə Avropaya qaz ixracatının ən azı iki dəfə artırılması planlaşdırılıb: "Biz ötən il qaz ixracatımızı əvvəlki ilə nisbətən 40 faiz artırmışıq. Bu il təxminən 30-40 faiz artıracağıq. Əlbəttə ki, bu, böyük sərmayə tələb edir və biz buna getməyə hazırıq və buna gedirik. Ona görə Avropa İttifaqı ilə imzalanmış memoranduma əsasən növbəti illərdə biz Avropaya qaz ixracatını ən azı iki dəfə artırmağı planlaşdırırıq. Yəni əgər keçən il bu, 9 milyard kubmetr idisə, deməli, 2027-ci ildə bu ən azı 18 milyard kubmetr olacaq, bəlkə də, çox".

Görəsən Fransa Parlamentinin deputatları bu bəyanatı qəbul edərkən hansı "havada" olublar?! Avropanın Azərbaycana möhtac olduğu bir zamanda belə bir tələbin irəli sürülməsi biabırçılıq deyilmi?!

Ən əsası odur ki, bütün bu çikrinliklərə görə Fransanın Qafqazı itirdiyi dəqiqdir. Yəqin ki, bundan sonra rəsmi Paris Azərbaycanın Qafqazın taleyini müəyyənləşdirən heç bir layihəsində iştirak edə bilməyəcək.

Baş verən bütün proseslər, Azərbaycan Prezidentinin ortaya qoyduğu qətiyyətli mövqe onu deməyə əsas verir ki, İlham Əliyev antiazərbaycançı dairələrə ədalət dərsi keçir və Ermənistan da, Fransa da, bu şəbəkənin digər üzvləri də bundan nəticə çıxarmalıdırlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Əhəmiyyətsiz kağız parçası

### Fransanın qərəzli qətnaməsinin heç bir təsir gücü yoxdur



Fransa parlamentinin aşağı palatası - Milli Assambleya "Azərbaycanın Ermənistana təcavüzünün dayandırılması"nı tələb edən qərəzli və ədalətsiz qətnamə qəbul edib. Qətnamə layihəsinin həmmüəllifləri isə Fransa prezidenti Emmanuel Makronun "Renessans" Partiyasının üzvləri olan deputatlardır.

Bu addım Fransanın Azərbaycana qarşı açıq düşmənçilik mövqeyini bir daha göstərir. Cənubi Qafqaz regionunda təhlükəsizlik üçün əsas təhdid olan Ermənistan-Azərbaycan münaqişəsinin indiyədək həllini tapmamasının əsas səbəblərindən biri də danışıqlar prosesində beynəlxalq vasitəçi rolunu oynamış Fransanın "status-kvo"nu qoruyub saxlamağa çalışmasıdır. Bu ölkənin Azərbaycanın ərazi bütövlüyünə qarşı qəbul etdiyi qətnamə də elə bunun bariz sübutudur.

Bu ədalətsiz dövlətin növbəti qərəzli qətnaməsi ölkımizdə günün mövzusuna çevrilib. Siyasətçilər birmənalı şəkildə qeyd edirlər ki, Fransa parlamentinin aşağı palatasının qəbul etdiyi "sənəd" əhəmiyyətsiz kağız parçasından başqa bir şey deyil.

Qətnamə ilə bağlı fikirlərini bildirən Milli Məclisin deputatı, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Tural Gəncəliyev deyir ki, Fransa parlamentinin aşağı palatasının yekdilliklə qəbul etdiyi bu sənədin qərəzli olduğu açıq-aşkar görünür: "Biz Azərbaycana düşmən mövqe sərgiləyən bu qətnaməni qınayır və rədd edirik. Fransa Senatının qəbul etdiyi bədnam qətnamədən sonra aşağı palatanın da yenidən belə bir qətnamə layihəsini müzakirəyə çıxarması ona dəlalət edir ki, Fransanın siyasi elitası reallıqdan tamamilə kənara çıxıb. Fransa Azərbaycana qarşı düşmən mövqeyini açıq-aşkar ortaya qoyur. Bu qətnamələr dediyimizi bir daha təsdiqləyir. Hesab edirəm ki, bundan sonra Fransa ilə siyasətimizi ciddi şəkildə nəzərdən keçirməliyik"

Deputat bildirir ki, qətnamələrdən sonra Fransa, ümumiyyətlə, Azərbaycan və Ermənistan arasında normallaşma prosesindən tamamilə kənar tutulmalıdır: "Fransız siyasətçilərinin, Fransa institutlarının Azərbaycanla bağlı bütün layihələrdən kənarlaşdırılması da nəzərdə tutulmalıdır. Xüsusilə də Azərbaycan-Fransa dövlətlərarası münasibətlərdə fransız hakimiyyəti Azərbaycandan üzr istəməyəcəyi və ölkəmizlə bağlı riyakar mövqeyini dəyişməyəcəyi təqdirdə münasibətlərimizin normal məcrada saxlanılması mümkünsüz görünür".

T.Gəncəliyev qeyd edir ki, geopolitik baxımdan Fransa Cənubi Qafqazda çox çətin vəziyyətdədir. Fransa çırpıntılar içərisində Cənubi Qafqazda söz sahibi olmaq istədiyini, belə cılız niyyətini öz parlamentinin bizim üçün heç bir əhəmiyyəti olmayan və hətta kağız parçası belə hesab etmədiyimiz qətnamələri ilə göstərir. Təbii ki, bunun Azərbaycan əleyhinə heç bir effekti olmayacaq. Ölkəmiz 44 günlük Vətən müharibəsindən sonra daha güclü dövlətə çevrilib.

Deputatın fikrincə, Fransa parlamentinin bu qərəzli qərarı eyni zamanda göstərir ki, özlərini liberal-demokratik dəyərlərin carçısı hesab edən fransızlarda fikir müxtəlifliyi anlayışı artıq yoxa çıxıb: "Biz burada siyasi deqredasiya trendinin şahidi oluruq. Bu onu göstərir ki, Fransa elitası tamamilə Azərbaycana qarşı köklənib. Burada erməni məsələsindən yalnız bəhanə kimi istifadə edilərək Azərbaycana qarşı öz çirkin, məkrli siyasətlərini həyata keçirmək məsələləri gündəmə gətirilir".

T.Gəncəliyev qeyd edir ki, Fransa 44 günlük müharibədən sonra qazandığımız qələbəni, radikal dünya erməni diasporu da daxil olmaqla erməni faşizminin belinin qırıldığını, Ermənistanın silahlı qüvvələrinin məğlubiyyətini hələ də həzm edə bilmir. Fransanın hazırkı reaksiyası bu ölkənin nə qədər ədalətsiz, obyektiv olmayan mövqedə olduğunu göstərir. 30 il ərzində ATƏT-in keçmiş Minsk qrupunun həmsədri kimi münaqişənin mövcudluğundan parazit kimi istifadə edən bu ölkə indi də başqa yollar axtarır, bu dəfə də öz iç üzünü, simasını artıq başqa cür göstərir. Bu da Ermənistanla münasibətlərin normallaşması prosesinə daxil olduğumuz bir dövrdə belə addımlarla Fransanın onsuz da aşağı düşən nüfuzunun yenidən bərpa edilməsinə olan bütün imkanları məhv edir: "Bu qərəzli qətnamə tamamilə öz ziyanlarına olan utancverici bir sənəd kimi Fransa tarixinə düşəcək".

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Fransa qərəzli dövlətdir

### Ölkəmiz əleyhinə qəbul edilmiş bədnam qətnamələr ənənəvi riyakarlığın davamıdır

Noyabrın 30-da Fransa Milli Assambleyası Azərbaycan əleyhinə bədnam qətnamə qəbul edib. Qətnamə Azərbaycanla Ermənistan arasında sivil dövlətlərarası münasibətlərin qurulmasına, eləcə də bölgədə sülhün bərpasına mane olmaq məqsədi daşıyır.

Fransanın növbəti riyakarlığı orada irqçilik, islamofobiya və türkofobiyanın ifrat həddə çatdığını bir daha təsdiq edir. Sübut olunur ki, bu ölkə Ermənistanın simasında birbaşa təcavüzü və terroru dəstəkləyir.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik. Onların sözlərinə görə, Fransa Milli Assambleyasının erməni şovinizmini dəstəkləyən qərəzli və ədalətsiz qətnaməsinin ölkəmiz üçün heç bir əhəmiyyəti və təsir imkanı yoxdur.





#### *Bu qətnamə bizim üçün heç kağız parçası da deyil*

Milli Məclisin deputatı Sahib Alıyev bildirib ki, Fransa Milli Assambleyasının ölkəmiz əleyhinə qərəzli qətnaməsini dəstəkləyənlər ya Makron kimi hay diasporunun təsiri altındadır, ya da türk düşmənidirlər: "Ola bilər ki, onların başqa qərəzləri, ola da bilsin mərəzləri var. Həmin sərsəm qətnaməni dəstəkləyənlərin çoxu burada sadalanan keyfiyyətsizliklərin hamısını, yaxud da bir neçəsini özündə daşıyır. Həmin senatorlar yəqin siyasi korrupsiyaya qurşanmışlardır".

Deputatın sözlərinə görə assambleyanın 557 üzvündən 256-sının qatıldığı dinləmədə onların hamısının bir nəfər kimi lehinə səs verdikləri bu qətnamə Azərbaycan üçün heç kağız parçası da deyil: "Belədə kağızı qiymətdən salmış olarıq. Həmin 256 nəfər bununla bir daha təsdiqlədilər ki, rəsmi Bakı Ermənistanla danışıqlarda Fransanın vasitəçiliyini çox düzgün olaraq qətiyyətlə rədd edir. Bununla yanaşı, əminəm ki, Fransa belə dayaz olduğu qədər, həm də düşməncəsinə davranışların qarşılığında başqa "sürprizlər"lə üzləşəcək".

#### *Fransanın öz milli maraqlarına vurduğu zərbə*

Milli Məclisin deputatı, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov bildirib ki, Fransa Milli Assambleyasının qərəzli qətnaməsi ölkələrimiz arasında münasibətlərə daha bir zərbə və beynəlxalq hüquqa açıq hörmətsizlikdir: "Bu, Azərbaycan cəmiyyətində Fransaya qarşı etimadsızlığın əsaslı olduğunu bir daha sübut etdi. Daha əvvəl Fransa Senatının qəbul etdiyi qətnamə də eyni siyasi məqsədlərə xidmət edir. Bu cür əsassız və Azərbaycan üçün heç bir siyasi əhəmiyyəti olmayan sənədlərin qəbul edilməsi Cənubi Qafqazda sülh və əməkdaşlıq təşəbbüslərinə mane olur. Şübhə yoxdur ki, həmin qətnamənin qəbul edilməsinin əsas məqsədlərindən biri ölkəmizə siyasi təzyiq üçün əlavə imkanlar yaratmaqdır".

Deputatın dediyinə görə, fransızlar son illərin təcrübəsinə nəzər yetirsələr görərlər ki, Azərbaycana təzyiq göstərmək, milli maraqlarımızı güzəştə getməyə məcbur etmək mümkün deyil: "Azərbaycan tamamilə müstəqil siyasət yürüdən, beynəlxalq münasibətlər sistemində öz yerini, tərəfdaşlarını sərbəst şəkildə müəyyən etmək imkanına malik güclü bir dövlətdir. Hansısa ölkənin parlamentinin qəbul etdiyi sənəd mövqeyimizi və siyasətimizi dəyişmək gücündə deyil. Fransa Milli Assambleyasının qəbul etdiyi "Azərbaycanın Ermənistana qarşı təcavüzünə son qoyulması və Cənubi Qafqazda davamlı sülhün bərqərar edilməsinə" dair qətnamədə tamamilə absurd mülahizələr yer alıb. Azərbaycana qarşı irəli sürülən ittihamlar da heç bir fakta və beynəlxalq hüquqi sənədlərə əsaslanmır".

S.Məmmədov bildirib ki, Senatın və Milli Assambleyanın qəbul etdiyi sənədlər ilk növbədə Fransanın öz milli maraqlarına, o cümlədən Cənubi Qafqazla bağlı siyasətinə vurulan zərbədir: "Sirr deyil ki, Cənubi Qafqazda təsir imkanlarını saxlamaq istəyən dövlətlər Azərbaycanın mövqeyini nəzərə almaq məcburiyyətindədirlər. Milli Assambleyanın qəbul etdiyi qətnamə Fransanın Cənubi Qafqaz ölkələri ilə münasibətlərində, xüsusilə Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə dair siyasətində tərəfsiz olmadığını bir daha nümayiş etdirir".

#### *Fransa Senatı və Milli Assambleyası Azərbaycanın haqlı mövqeyinə təsir edə bilməz*

Milli Məclisin deputatı Ceyhun Məmmədov Fransa Milli Assamleyasının qətnaməsini xristian təəssübkeşliyinin növbəti təzahürü adlandırıb. Deputat qeyd edib ki, Azərbaycan əleyhinə qəbul edilmiş bu qətnamə Fransanın ölkəmizə qarşı ədalətsiz münasibətinin, qərəzli yanaşmasının, beynəlxalq hüquqa hörmətsizliyinin göstəricisidir. Bu ölkə Azərbaycana qarşı eyni münasibəti və qərəzi Vətən müharibəsi dövründə də göstərmişdi.

"Son proseslər göstərdi ki, bir fransız siyasətçinin dediyi kimi, Makron fransızların deyil, Fransada yaşayan ermənilərin prezidentidir. Makronun bu qətnamənin qəbul edilməsinə canfəşanlıqla yanaşması bunu bir daha təsdiq edir. Bu həmçinin Makronun Fransa erməniləri qarşısında hansısa öhdəliyinin olmasından xəbər verir. Bu zaman belə bir sual yaranır: "Əgər Fransa bu qədər haqqın və ədalətin yanındadırsa 30 ilə yaxın dövrdə Azərbaycan torpaqları işğalda olarkən, azərbaycanlılara qarşı Xocalı soyqırımı törədilərkən, bütün ərazilərimiz ermənilər tərəfindən viran qoyularkən, 67 məscidimiz, eləcə də Qarabağdakı yeganə pravoslav kilsəsi barbarcasına dağıdılarkən, Alban abidələri saxtalaşdırılarkən və uçurularkən niyə Fransa Milli Assambleyası bu məsələlərə heç bir münasibət bildirmədi? Deməli, ortada açıq-aydın qərəz və xristian təəssübkeşliyi var", - deyə o bildirib.

C.Məmmədov deyib ki, Fransa və Ermənistanın digər havadarları bu cür qətnamələrlə Azərbaycanın haqlı mövqeyinə təsir edə biləcəklərini düşünürlərsə, yanılırlar: "Azərbaycan xalqının və Müzəffər Ali Baş Komandan İlham Əliyevin mövqeyi prinsipial və qətiyyətlidir. Ona görə də belə qətnamələrin qəbulundan ən çox əziyyət çəkən yenə Ermənistan və erməni xalqı olacaq. Lakin unutmaq olmaz ki, bu gün bölgəmizin və dünyamızın daha çox sülhə və təhlükəsizliyə ehtiyacı var. Son addımlar isə göstərir ki, bir sıra dövlətlər bölgədə sülhün bərqərar olmasında deyil, yalnız qeyri-sabitlik və qarşıdurmada maraqlıdırlar".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Tarixi başdan-başa soyqırımları ilə yazılan Fransanın ədalətsiz mövqeyi

# Fransa, həddini bil!

### Milli Məclis növbəti dəfə bu ölkəyə yerini göstərdi

**Məyusluğa düçar olan Ermənistan vəziyyətdən çıxmaq üçün özünə dəstəkçi axtarır. Ona görə də Fransada fəaliyyət göstərən lobbiçilik institutlarının hiylələrindən istifadə edərək ölkəmizə qarşı məqsədli addımlar atmağa çalışır. Görünür, rəsmi İrəvan "dostluqda" erməni xislətli fransızları özünə bir köynək daha yaxın bilir.**

Fransa parlamenti heç bir qanuni və mənəvi haqqı olmadan, sırf erməni şovinistlərinə xoş görünmək üçün Azərbaycan əleyhinə bədnam qətnamələr qəbul edir. Noyabrın 30-da Fransa parlamentinin aşağı palatasında ölkəmiz əleyhinə növbəti qərəzli qətnamə layihəsinin müzakirəyə çıxarılması da bunu bir daha sübut etdi. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi isə bu yalan və iftira dolu qətnaməni bir müddət əvvəl Senatda qəbul edilmiş qətnamə kimi Fransanın Azərbaycana qarşı növbəti təxribatı adlandırdı.

Qətnamə müəllifləri "Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin hazırlanması üçün Fransa hökumətini Aİ və ABŞ ilə birgə fəaliyyət göstərməyə" çağırıblar. Sənəddə "Azərbaycan və digər regional aktorların Ermənistanın müstəqilliyi və ərazi bütövlüyünə hörmət etməsinin zəruri olduğu" vurğulanır. Güya cəzasızlığa qarşı mübarizə üçün Ermənistanın Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etməsi təklif olunur.

Fransanın belə saxta ittihamlarla dolu "cızma-qara"ları Azərbaycanı haqq yolundan döndərmək iqtidarında deyil, hətta həmin "sənəd"lərin ölkəmiz üçün heç bir əhəmiyyəti yoxdur. Görünür, Fransa senatorları "böyüklük məndə qalsın" deyib kiçik bacılarının hər cürə nazını çəkməyə razıdırlar. Ona görə də bu ölkə öz milli maraqlarını belə qurban verərək, Avropanın enerji təhlükəsizliyində vacib aktora çevrilmiş Azərbaycanla dövlətlərarası münasibətləri pozmağa hazırdır.

#### Fransanın qanunvericilik orqanları siyasi avantüra meydanına çevrilib

Azərbaycan Parlamentinin Fransa Milli Assambleyasının qəbul etdiyi bədnam qətnaməyə adekvat cavabı gecikməyib. Parlament həmin qətnamə layihəsini qəti şəkildə rədd edib və onu siyasi riyakarlıq nümunəsi adlandırıb. Milli Məclisin qətnamə ilə bağlı açıqlamasında bildirilib ki, Fransa Senatının noyabrın 15-də məlum qətnaməni qəbul etməsinin ardınca bu ölkənin Milli Assambleyası da Azərbaycana qarşı qərəzli siyasi aksiya təşkil edib, beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirən, dövlətimizin ərazi bütövlüyünü və suverenliyini hədəf alan qərəzli, qeyri-obyektiv və ədalətsiz akt qəbul edib. Qeyd edilib ki, bu qətnamələr Fransanın qanunvericilik orqanlarının siyasi avantüra meydanına çevrilməsindən xəbər verir.

"Danılmaz faktdır ki, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın işğalı dövründə münaqişənin dinc yolla nizama salınması üçün göstərilən səylərin nəticə verməməsinin əsas səbəbi təcavüzkar dövlətin öz adı ilə çağırılmaması, vasitəçilik vəzifəsini öhdəsinə götürən dövlətlər, xüsusən Fransa tərəfindən ikili standartlara yol verilməsi, işğalçı dövlətlə işğala məruz qalan dövlətin bir tutulması, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməməsi, beynəlxalq qaydalara meydan oxuyan Ermənistan dövlətinə münasibətdə lazımi qətiyyətin göstərilməməsi, bir sıra hallarda isə onun açıq-aşkar şirnikləndirilməsi olub. Təəssüflə qeyd edilməlidir ki, bu gün Fransanın hakimiyyət orqanlarının, o cümlədən parlamentin hər iki palatasının təxribatçı addımları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçməsinə, münasibətlərin normallaşmasına zərbə vurur, qonşu dövlətlərə qarşı ərazi iddiaları üzərində qurulan erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edir, revanşist və aqressiv separatçı qüvvələri həvəsləndirir, regionu yeni təhlükələrə yönləndirir. Populist siyasi baxışlar əsasında Fransanın daxili siyasi gündəliyi və müxtəlif lobbi dairələrinin maraqlarının Cənubi Qafqaz regionuna daşınması qəbuledilməzdir", - deyə açıqlamada qeyd edilib.

Həmçinin bildirilib ki, Fransa parlamentinin üzvləri Cənubi Qafqazda baş verən hadisələrin təhrif edilməsi praktikasından əl çəkməli, Azərbaycanla Ermənistan arasında sivil dövlətlərarası münasibətlərin qurulması üçün yaranmış tarixi imkanın qarşısını ala bilən ritorikaya və hərəkətlərə son qoymalıdırlar. Fransa Milli Assambleyasının Fransanın müstəmləkəçilik tarixinə ədalətlə yenidən baxması və ona düzgün siyasi-hüquqi qiymət verməsi, Fransada tüğyan edən irqçilik, islamofobiya və antisemitizm hallarının qarşısını almaq üçün üzərinə düşən öhdəliklərini yerinə yetirməsi və sadə Fransa vətəndaşlarının problemlərini dinləməsi daha faydalı və səmərəli olardı.

Görünən odur ki, yalnız həqiqətlərin yer aldığı bu açıqlamalar Fransanın heç bir dəyərə sahib olmayan kağız parçalarından daha obyektivdir. Yəni Fransa parlamentinin erməni cəmiyyətinə, şəxsən Ermənistanın baş naziri Nikol Paşinyana növbəti qətnamə sürprizi onları yalnız müvəqqəti eyforiyada saxlaya bilər. Milli Məclisin məsələyə münasibəti, ümumilikdə rəsmi dövlət mövqeyimiz ermənilərin və fransızların saxta sevinclərini onların qursağında qoyur. Riyakar Fransa və təcavüzkar Ermənistan həmişə olduğu kimi, yenə də başa düşəcəklər ki, haqlı mövqeyini müdafiə etməkdən çəkinməyən Azərbaycanı mühakimə etmək, ona qarşı qərəzli tələblər irəli sürmək əsassızdır və qəbul olmayacaq duaya "amin" demək vaxt itkisindən başqa bir şey deyil. Azərbaycan parlamentinin ən sadə mövqeyi belə Fransa Senatının və Milli Assambleyasının imzalı-möhürlü sənədlərindən dəfələrlə çox kəsərlidir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Fransa Ermənistanı məhvə sürükləyir

### Bu "dəstək" İrəvanı daha böyük məğlubiyyətə aparacaq

**Noyabrın 30-da Fransa növbəti dəfə Azərbaycana qarşı təxribata əl atdı, ölkəmizə düşmənçiliyini bir daha nümayiş etdirdi. Sözügedən tarixdə Fransa parlamentinin aşağı palatasında (Milli Assambleya) Azərbaycan əleyhinə yalan və iftira dolu qətnamə qəbul edildi. Siyasi riyakarlıqla məşğul olan bu ölkənin senatı da hələ noyabrın 15-də Azərbaycana qarşı bədnam qətnamə qəbul etmişdi.**

Göründüyü kimi, vasitəçi olaraq 25 il müddətində Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində heç bir iş görməyən, əksinə, münaqişənin uzanmasında maraqlı olan Fransa indi də öz siyasi mənafeyi naminə iki ölkə arasında sülh əldə olunması prosesinə çirkin yollarla əngəl olmağa çalışır. Azərbaycana qarşı ardarda kağız parçaları qəbul edərək erməni "sevgi"sinin aşıb-daşdığını sərgiləyən Fransa bu bədnam əməlləri ilə Ermənistanda revanşist qüvvələrin iştahını artırır. Yəni dolayısı ilə gələcəkdə Ermənistanın bir dövlət kimi varlığını da şübhə altına almış olur.

#### Fransa nə etsə də, sülh müqaviləsi bağlanacaq

Fransa çox yaxşı bilir ki, haqq və ədalət hər zaman Azərbaycanın tərəfindədir və Vətən müharibəsində "dəmir yumruğ"un gücü ilə torpaqlarını işğaldan azad edən ölkəmiz siyasi platformada da öz milli maraq və mənafelərini qətiyyətlə təmin edəcək. Danışıqlardan hər vəchlə yayınmağa çalışan, Fransa kimi "dəstəkçi"lərinə güvənərək pozucu davranış sərgiləyən Ermənistan isə sülh müqaviləsini bağlayacaq, ya öz xoşu ilə, ya da zorla. Çünki Ermənistanın Azərbaycanla sülh bağlamaqdan başqa çıxış yolu yoxdur və o da danılmaz həqiqətdir ki, ölkəmizlə normallaşma həm də elə siyasi, iqtisadi, sosial, demoqrafik böhranlar bataqlığında çabalayan məğlub ölkənin öz xeyrinədir.

Bu baxımdan Fransanın qəbul etdiyi qərəzli kağız parçalarının Azərbaycan üçün heç bir əhəmiyyəti olmasa da, Ermənistanı məhvə sürüklədiyi şübhəsizdir. O da şübhəsizdir ki, Ermənistanla Azərbaycan arasındakı normallaşma prosesində Fransa vasitəçi ola bilməyəcək.

Noyabrın 25-də Bakıda keçirilən "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda Prezident İlham Əliyev də çıxışında bildirdi ki, Fransa Senatı tamamilə təhqiredici məlum qətnamə qəbul edib: "Fransa Milli Assambleyasının daha bir anti-Azərbaycan qətnaməsi qəbul etməsi də gözlənilir. Bunun ardınca Fransanın Frankofoniya Sammiti vasitəsilə bizə qarşı hücum cəhdi oldu. Bu, qəbuledilməzdir, çünki Frankofoniya humanitar təsisatdır".

Dövlət başçısı bildirdi ki, bütün bunlara görə Fransa sülh danışıqlarında iştirak edə bilməz: "Bu, bizim deyil, onların günahıdır".

#### Fransanın günahı

Məhz Fransanın günahı üzündən Ermənistan sülhdən yayınır və bu minvalla da özünü daha böyük məğlubiyyət uçurumuna yuvarlayır.

Bildirək ki, dekabrın 7-də Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə növbəti üçtərəfli görüş nəzərdə tutulurdu. Hətta bu görüşün iki ölkə arasında sülh müqaviləsinin bağlanmasına gətirib çıxaracaq ümidverici nəticələrinin olacağı da düşünülürdü, amma sülh danışıqlarını pozmaq üçün Ermənistan məkrli bir oyuna əl atdı. Sözügedən danışıqlara çox qısa müddət qalmış Ermənistanın baş naziri Nikol Paşinyan Brüssel görüşündə Makronun iştirak etməsi tələbini irəli sürdü. Bu isə Paşinyanın açıq-aydın sülh danışıqlarını pozmaq kimi məkrli cəhdinin təcəssümü idi.

"Keçmiş Minsk qrupu"nun tərkibində 25 il müddətində daş sükutuna bürünərək torpaqlarımızın Ermənistan tərəfindən işğalına, bir milyondan çox vətəndaşımızın yurdundan didərgin düşməsinə, 30 il ərzində ərazilərimizin erməni vandallığına məruz qalmasına biganə münasibət bəsləyən Fransanın indi erməni "maraqları"nı bu cür müdafiə etməsi əsl riyakarlıq, vicdansızlıqdır. Özünü Avropanın demokratik ölkəsi hesab edən Fransa faktiki olaraq hələ də müstəmləkəçilik ab-havasından çıxmadığını, digər ölkələrin işlərinə qarışmağa meyilli olduğunu və Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini hədəf alan qərəzli siyasət yürütdüyünü ortaya qoyur. Tarixi başdan-başa soyqırımları üzərində qurulan, əli bir milyon yarım əlcəzairlinin qanına batan Fransanın Azərbaycanı hansısa əsassız iddialarla ittiham etməsi absurddur.

Bütün bu faktlar isə Fransanın Ermənistan və Azərbaycan arasında sülhə razılaşmadığını, birtərəfli mövqe sərgilədiyini və ədalətli vasitəçi olmadığını ortaya qoyur.

Bu, heç bir hüquqi qüvvəyə malik olmayan kağız parçalarının Fransa və Azərbaycan arasında qarşılıqlı etimada böyük zərbə vurduğu, Ermənistanı revanşist hisslərlə qızışdıraraq məğlub ölkəni yeni məğlubiyyətlərin astanasına gətirdiyi də danılmaz həqiqətdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Cinayətkar dövlət, cinayətkar prezident



## Emmanuel Makron sələflərinin yolunu davam etdirir

Fransanın yüzilliklər boyu dünyanın müxtəlif bölgələrində törətdiyi hərbi və insanlığa qarşı cinayətlər artıq dillər əzbəri olub. Təkcə XXI əsrdə fransız hərbçiləri Afrika ölkələrində dəfələrlə hərbi cinayətlər törətməkdə ittiham olunublar. Buna baxmayaraq, günahkarlar cəzalandırılmayıb, Fransa rəhbərliyi isə yeni cinayətlərin qarşısını almaq üçün tədbirlər görməyib.





Fransa 1960-cı illərdə müstəmləkələrini formal olaraq azad etsə də, bəzi Afrika ölkələrində hələ də güclü təsirini saxlayır. Ekspertlərin fikrincə, Fransa elə siyasi, sosial və iqtisadi şərait yaradır ki, keçmiş müstəmləkələri sabiq "ana" ölkəyə sadiq qalmağa məcbur olsunlar. Bu nəzarət yumşaq güclə - həm təhsil və mədəni əməkdaşlıq proqramları, həm də hərbi güc yolu ilə həyata keçirilir.

#### *Paris dəfələrlə qətllərin, işgəncələrin əsas fiqurantı olub*

Fransız qoşunları uzun müddətdir ki, Afrikadadır. Əvvəlcə onlar müstəmləkə siyasətinin tərkib hissəsi kimi orada idilər, indi isə guya yerli əhalini ekstremistlərdən qorumaq, üsyançılara qarşı mübarizədə hakimiyyət orqanlarına kömək etmək, vətəndaş müharibələrinə son qoymaq və digər bəhanələrlə fəaliyyət göstərirlər.

Fakt budur ki, Afrikada vəziyyət yaxşılığa doğru heç dəyişməyib. Məsələn, 2014-2021-ci illərdə Mali, Çad, Burkina Faso, Mavritaniya və Nigerdə həyata keçirilən "Barhan" əməliyyatı, Fransa hərbçilərinin və ekspertlərinin fikrincə, heç bir real nəticə verməyib. On minlərlə dinc sakin evlərini tərk etmək, silahlı qruplardan qaçmaq və qaçqın düşərgələrində dəhşətli şəraitdə yaşamaq məcburiyyətində qalıb. Hazırda da ekstremistlərin aramsız hücumları nəticəsində minlərlə insan ölür.

Parisin Afrikada hərbi mövcudluğu faydasız olmaqla yanaşı, mülki əhaliyə də xeyli ziyan vurur. Fransa ordusunun müstəmləkəçilik dövründə törətdiyi hərbi cinayətlər bir yana, XX-XXI əsrlərdə Paris dəfələrlə qətllər, işgəncələr və dinc əhaliyə qarşı zorakılıqlarla bağlı qalmaqalların əsas fiqurantı olub.

Fransız hərbçiləri dəfələrlə yerli əhalini öldürməkdə ittiham olunublar. Məsələn, 2005-ci ildə üç fransız əsgəri Kot Divuar vətəndaşını vəhşicəsinə qətlə yetirib. Onların quldur dəstəsinin üzvünü saxladıqları bildirilir. Onu aparan zaman başına polietilen torba keçirərək boğublar. Fransa hərbçilərinin məhkəməsi yalnız 2012-ci ildə baş tutub. Onlar təqsirlərini inkar etməyiblər, lakin yuxarı komandanlığın əmri ilə hərəkət etdiklərini bildiriblər. Əgər bu ifadələr doğrudursa, o zaman məlum olur ki, yerli əhaliyə qarşı zorakılıq əsgərlərin özlərinin qəddarlığının nəticəsi deyil, ölkənin hərbi komandanlığı tərəfindən sanksiyalaşdırılıb.

#### *Fransa ordusunun Afrika ölkələrindəki cinayətləri...*

2021-ci ilin yanvarında Fransa ordusu Malinin Bunti kəndinə hava hücumu həyata keçirib. Həmin hücum nəticəsində 19 nəfər həlak olub. Fransa ordusu hücumun hədəfinin cihadçılar olduğunu bildirib. Halbuki həmin gün kənd camaatı toy mərasiminə toplaşıb. Bu qanlı olaydan sonra da Fransa hərbçiləri bəraət alıblar.

Bundan əlavə, beynəlxalq təşkilatlar Fransa hərbçiləri tərəfindən yetkinlik yaşına çatmayanlara qarşı cinsi zorakılıqdan xəbərdar olublar. CAR və Burkina Fasoda keçirilən "Sanqaris" əməliyyatı zamanı hərbi qulluqçular 15 yaşından kiçik yetkinlik yaşına çatmayan uşaqları yemək və ya hədə-qorxu qarşılığında seksual hərəkətlərə məcbur ediblər. Ötən ilin aprelində Mali hakimiyyəti Fransanı Qossi şəhərindəki hərbi bazada kütləvi məzarlığı örtbasdır etməyə çalışmaqda ittiham edib. Fransa ordusunun hərbçiləri bazanı tərk etdikdən sonra orada kütləvi məzarlıq aşkar edilib.

Bu faktlar bir daha sübut edir ki, Fransanın Afrikada hərbi mövcudluğunun uzun tarixinə və bu dövrdə hərbi cinayətlərə, habelə onların bəzilərinin etiraf olunması faktına baxmayaraq, bu ölkənin ordusu yerli əhaliyə qarşı davranışını və münasibətini dəyişmir.

Repressiyaya Qarşı Mübarizə Fondunun hüquq müdafiəçiləri mülki əhaliyə qarşı zorakılığı pisləyir və beynəlxalq təşkilatları Fransa hərbçilərinin ittiham olunduğu cinayətləri hərtərəfli araşdırmağa çağırırlar. Afrikada Fransanın hərbi mövcudluğu ilə əlaqəli qeydə alınmış cinayət faktlarının indiyədək insan haqları üzrə beynəlxalq təşkilatlar tərəfindən araşdırılmaması isə sağlam düşüncəli insanlarda narahatlıq və çaşqınlıq yaradır.

Belə olan halda cinayətkar ölkənin kriminal siyasətçilər tərəfindən idarə olunması artıq heç bir təəccüb doğurmamalıdır. Fransız siyasətçiləri üçün özəl investorlardan və əcnəbilərdən rüşvət almaq, eyş-işrətlə məşğul olmaq adi hala çevrilib. 2012-ci ildə prezidentliyə ən real namizədlərdən hesab olunan Beynəlxalq Valyuta Fondunun başçısı Dominik Stross-Kan Nyu Yorkun "Sofitel" hotelinin əməkdaşı Nofisatou Diallonu zorlamaqda ittiham edilirdi və ABŞ-də həbs olunmuşdu. Bundan əvvəl isə o, vətənində yazıçı Tristan Banona təcavüz etmişdi. Milyonlarının hesabına yaxasını uzunmüddətli həbs cəzasından qurtarsa da, prezidentlik arzusunu reallaşdıra bilməmişdi.

Həmin il dövlət başçısı seçilən Nikola Sarkozi isə kosmetika konserninin sahibi olan Betankur ailəsindən dəfələrlə "bəhrələnib" və seçki kampaniyası üçün Müəmmər Qəddafidən 50 milyon avro almaqda ittiham olunub. 2011-ci ildə Fransa bu yaxşılığa Liviya liderinin öldürülməsi və Şimali Afrika dövlətinin dağılması ilə cavab verdi.

#### *Sabiq prezident Nikola Sarkozini həbsə atdıran Makronu da eyni aqibət gözləyir*

Sarkozi artıq Prezident Makronun dövründə korrupsiyada və əcnəbilərdən rüşvət almaqda ittiham edilərək həbsxanaya göndərilib. Ola bilər ki, bu yolla Makron potensial rəqiblərindən qurtulub. Amma sonda özü də oxşar qalmaqalın fiqurantı olub. Hazırda Fransanın milli maliyyə prokurorluğu və üç istintaq hakimi Amerikanın "McKinsey" konsaltinq şirkəti ilə Makronun yaxın ətrafı arasında əlaqəni üzə çıxarmağa çalışırlar.

"McKinsey" tərəfindən korporativ vergilərin ödənilməməsi və çirkli pulların yuyulması ilə bağlı əvvəlki ittihamlara "favoritçilik" ifadəsi əlavə edilib. Bu isə o deməkdir ki, araşdırılan məsələlər arasında Amerika ofisinin Fransada hökumət müqavilələri bağlayarkən imtiyazlara sahib olub-olmaması mülahizəsi var.

Emmanuel Makronun adının cinayət əməllərində hallanması ilk dəfə deyil. Beş il əvvəl qalmaqallı siyasətçi artıq korrupsiyada şübhəli bilinirdi. Maliyyə naziri olduğu müddətdə Las-Veqasda ziyafət təşkil etmək üçün tender keçirmədən bir reklam firmasını seçmişdi. Həmin tədbirin rəsmi məqsədi ABŞ-də fransız biznesinin təşviq olunması idi. Təxminən eyni zamanda Makronun bəyan etdiyi məbləğlərin, əslində, qazandıqları ilə uyğun gəlmədiyi ortaya çıxdı. Yəni Fransanın gələcək lideri vergi xidmətini aldatmağa çalışıb. Prezidentlik kampaniyası zamanı isə bütün seçiciləri aldatmağa cəhd edib.

Fransa mətbuatı dövlət başçısının mümkün cinayət əməlləri ilə bağlı səs-küylü başlıqlarla çıxıb. Qəzetlərin birinci səhifələrində Prezident Makronun hər iki seçki kampaniyasının Amerikanın "McKinsey" konsaltinq şirkəti tərəfindən qeyri-qanuni şəkildə maliyyələşdirilməsi və bu xərclərin rəsmi olaraq heç bir yerdə göstərilməməsi ilə bağlı ittihamlar yer alıb. Təşəkkür olaraq xeyriyyəçi iş adamları öz namizədlərinin qələbəsindən sonra böyük məbləğdə dövlət kontraktlarına yiyələniblər. Bundan əlavə, ölkə ərazisində fəaliyyət göstərən şirkət yüz milyonlarla avronu fırlatsa da, 9 il ərzində heç bir korporativ vergi ödəməyib.

Bunlar yalnız yaxın keçmişin tarixi olsa da, Fransa adlı ölkənin və onun rəhbərlərinin mənfur mahiyyətini, əxlaq və davranışlarını anlamaq üçün kifayət edən faktlardır.

*Rizvan HİLALOĞLU,*
*"Azərbaycan"*

# Vətən müharibəsinin daha 30 iştirakçısı və 1 şəhid ailəsi üzvü polis orqanlarında xidmətə qəbul edilib

Noyabrın 30-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Sıra baxışında Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində, o cümlədən mediada verilmiş elana uyğun olaraq nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 211 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb. Onlar 30 Vətən müharibəsi iştirakçısı, 1 şəhid ailəsi üzvü olub.

Tədbirdə çıxış edən daxili işlər naziri V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edərək seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Azərbaycan Ordusu ilə Oklahoma Milli Qvardiyası arasında birgə tədbirlər müzakirə olunub

Amerika Birləşmiş Ştatlarında səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Oklahoma ştatının qubernatoru Kevin Stitt və Milli Qvardiyasının rəisi briqada generalı Tomas Mançino ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik K.Vəliyev K.Stittin 2021-ci ildə ölkəmizdə olarkən işğaldan azad olunmuş bölgələrə səfər etməsini əlaqələrimizin yüksək səviyyədə olmasının bariz nümunəsi kimi dəyərləndirib.

Azərbaycan Ordusunun hərbi qulluqçularının beynəlxalq sülhməramlı əməliyyatlarda iştirakından danışan general-polkovnik K.Vəliyev Azərbaycanın üzərinə götürdüyü vəzifə və öhdəlikləri layiqincə yerinə yetirərək Əfqanıstandan sülhməramlılarını çıxaran son tərəfdaş ölkələrdən biri olduğunu qeyd edib.

Tərəflər "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində Azərbaycan Ordusu ilə Oklahoma Milli Qvardiyası arasında keçirilən birgə tədbirlərə dair ətraflı fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Sonra nümayəndə heyətimiz Azərbaycan Ordusu ilə Oklahoma Milli Qvardiyası arasında əməkdaşlığın 20 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak edib.

# Rusiya ilə Azərbaycan arasında hüquqi sahədə əlaqələr yüksək səviyyədədir

Azərbaycan və Rusiya baş prokurorluqları arasında imzalanmış 2021-2023-cü illər üçün əməkdaşlıq proqramından irəli gələn müddəaların icrası məqsədilə Rusiya Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, proqram çərçivəsində korrupsiya cinayətlərinin qarşısının alınması, korrupsiya yolu ilə əldə edilmiş aktivlərin aşkarlanması, onların olduğu yerin müəyyənləşdirilməsi mövzusunda "dəyirmi masa"nın və qanunsuz aktivlərin xaricə çıxarılmasının qarşısının alınması və digər aktual mövzularda mühazirələrin keçirilməsi nəzərdə tutulur.

Noyabrın 30-da baş prokuror Kamran Əliyev nümayəndə heyəti ilə görüşüb. Rusiyalı qonaqları salamlayan baş prokuror ölkələrimiz arasında hərtərəfli, o cümlədən hüquqi sahədə əlaqələrin yüksək səviyyədə olmasını məmnunluqla ifadə edərək, Azərbaycan Prezidenti İlham Əliyevin korrupsiya ilə mübarizə sahəsində qəti siyasi iradəsi nəticəsində aparılmış islahatların əhəmiyyətini vurğulayıb. Səfər zamanı keçiriləcək tədbirlərin həm praktiki, həm də nəzəri sahədə prokurorluq əməkdaşlarının inkişafına müsbət təsir göstərəcəyini bildirib.

Rusiya Baş Prokurorluğunun nümayəndələri yüksək qonaqpərvərliyə və səmimi görüşə görə minnətdarlıqlarını ifadə edərək səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd ediblər.

Nümayəndə heyətinin ölkəmizə səfəri davam edir.

◆ **Tarixi araşdırma**

# Şuşanın özü də, adı da qəhrəmanlıqla qaytarıldı

## Erməni saxtakarlığı isə tarixin arxivinə atıldı

Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin incisi Şuşa şəhər-qalasının Qarabağın Sarıcalı oymağının Cavanşirlər tayfasından olan Pənahəli xan tərəfindən (1748-1763) salınması, xanın varisi, 43 il Qarabağ xanlığına başçılıq etmiş İbrahimxəlil xanın hakimiyyəti (1763-1806) dövründə Şuşanın bir şəhər kimi formalaşması, möhkəmləndirilməsi və digər mühüm məsələlər vətən tarixşünaslığında yetərincə araşdırılıb.

XVIII əsrin 80-90-cı illərində Şuşa şəhəri alınmaz qala, strateji məkan kimi çar Rusiyasının məxfi planlarında xüsusi yer tutmuşdu. Qarabağ məliklərini ələ alan II Yekaterina hakimiyyəti (1762-1796) Şuşanın ələ keçirilməsi ilə bağlı məxfi planlar hazırlamışdı. Belə çətin şəraitdə İbrahimxəlil xan həm daxildəki separatçı qüvvələrlə mübarizə apara bilmiş, həm də həmin qüvvələrin arxasında dayanan Rusiya dövləti ilə münasibətlərini tənzimləməyi bacarmışdı (əlavə məlumat üçün bax: *Nəcəfli G.C. "Şuşa tarixinin saxtalaşdırılmış səhifələrinə dair" // "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən keçirilən "Tarixi yerlər və abidələr IV Beynəlxalq Şuşa Simpoziumu"nun materialları, Bakı, 2022, s.280-287).*

Bu yazıda məqsəd Şuşa qalasının əsasının qoyulması, şəhərin adının etimoloji mənşəyi və digər məsələlərin ermənidilli tarixşünaslıqda təhrif edilməsi ilə bağlı bəzi faktlara nəzər salmaq və bu saxtalaşdırmanın heç bir elmi əsası olmadığını XVIII əsrdə tərtib edilmiş ermənidilli sənədlərin təhlili əsasında sübuta yetirməkdir.

*Şuşa adının etimoloji mənşəyinin saxtalaşdırılması cəhdləri:* Vətən tarixinin bir çox tədqiqatçıları bu adın şəhərin salındığı ərazinin relyefinə uyğun olaraq yarandığını və qədim türk dillərindəki "yayla", "şiş qaya", "piramida" mənasında işlənildiyini bildirir və onun xalq arasında, eləcə də bir sıra ədəbi əsərlərdə "Şişə" kimi işlədilməsini də bununla əsaslandırırlar (bax: *Mahmudov Y., Mustafayev C. Şuşa-Pənahabad. Bakı, 2012, s.22*).

Azərbaycan xalqının etnik mənşəyini tədqiq etmiş Q.Qeybullayev isə Şuşa adını qədim və erkən Orta əsrlər dövründə Şimali Qafqazda yaşamış və sonralar Azərbaycana köç etmiş türkdilli dondar tayfası ilə bağlayır. Antik müəlliflərdən birinə istinad edən Q.Qeybullayev antik dövrdə dondarların Şimali Qafqazda yerləşən paytaxtının "Sosu" və ya "Şoşu" adlandırıldığını göstərir. Onun fikrincə, sonralar Albaniyaya köç etmiş dondarlar bu şəhərin adını da özləri ilə gətirmiş və indiki Qarabağ ərazisində bu ad altında bir neçə yaşayış məntəqəsi, o cümlədən uzun müddət Şuşa şəhərinin yaxınlığında mövcud olmuş Şuşakəndi yaratmışlar *(Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991, с.136-137).*

Şuşa adının etimoloji mənşəyi haqqında erməni müəllifləri arasında müxtəlif fikirlər olsa da, bu fikirlər heç bir qaynağa söykənmir, yalnız ehtimaldan ibarətdir. Məsələn, Şahen Mkrtçyan sovet dövründə yazmış olduğu kitabında "Şuşa" toponimini "Şuşi" adlandıran sələfi Leonun (Arakel Babaxanyan) 1914-cü ildə Tiflisdə erməni dilində nəşr olunmuş "Qarabağ erməni yeparxiyasının sahibkarlar məktəbinin tarixi" adlı kitabındakı fikirlərinə əsaslanaraq "Şuşi" adının şəhərin şərqindəki "Şoş" kəndinin adından yarandığını qeyd edir. *(Mkrtçyan Ş. Dağlıq Qarabağın tarixi-memarlıq abidələri, Yerevan, 1980, s.146-147).* Müəllif sovet imperiyasının dağılması ərəfəsində Qarabağda baş verən məlum hadisələrin gərginləşdiyi zamanda çap etdirdiyi digər kitabında "Şuşi" toponimini bir daha açıqlamağa çalışaraq, toponimin "Artsax" ləhcəsində - "nayev şoş" - gənc ağaclara verilən ad, bu ağaclardan ibarət parka verilən "şoşot" ifadəsindən alındığını yazır *(Mkrtçyan Ş. Şuşi, Köhnə açıqcalar. Yerevan, 1990, s.172).*

Göründüyü kimi, Şuşa adının erməni dilində heç bir izahı olmadığı üçün erməni müəllifləri onu istədikləri şəkildə yozmağa çalışırlar.

Onu da qeyd edək ki, XVIII əsrin ermənidilli sənədlərində Şuşa termini indiki erməni müəlliflərinin yazdığı "Şuşi" şəklində deyil, Şuşu və Şoşu şəklində təqdim edilmişdir.

*Şuşa qalasının salınması ilə bağlı fərziyyələr.* Şuşa adının etimoloji mənşəyini saxtalaşdıran və "Şuşa" sözünü təhrif edərək "Şuşi" kimi təqdim edən müasir erməni müəllifləri də bu fikri davam etdirərək yazırlar ki, "Xəmsə məliklərinin yaşadığı ərazidə qədim qala (yəni Şuşi) var ki, o, Cavanşirlər tərəfindən hiylə ilə ələ keçirildi" *(Чобанян П.А., Карапетян М.М. Из истории армяно-русских отношений (Об исторических связях Карабаха с Россией) //http://www.armenianhouse.org/caucasian-albania/094-106.html, c.96).*

**"...Əfsuslar olsun ki, erməni tarixşünaslıq elmində hər bir addımda saxtakarlıq görürük. O cümlədən Azərbaycan əraziləri ilə bağlı, Qarabağın tarixi ilə bağlı. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, bu saxta tarix siyasəti son beş-altı ildə hətta yeni bir forma almışdı. Onlar Azərbaycan şəhərlərini rəsmən erməni adları ilə, saxta adlarla adlandırmağa başladılar. Buraya, məsələn, Şuşa şəhəri də aiddir, onlar onu "Şuşi" adlandırmağa başladılar. Bu şəhər heç vaxt "Şuşi" olmamışdır və yeri gəlmişkən, mən "Şuşi"nin nə məna daşıdığını və nəyə görə erməni adı hesab edilməli olduğunu bilmirəm. Mən başa düşmürəm. Bütün xəritələrə baxsanız, tarixi xəritələrə baxsanız, sovet ensiklopediyasına baxsanız, Şuşa görərsiniz"**

***(29 aprel 2022-ci il tarixdə ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda keçirilən beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqindən)***

Bu fikri Ter-Avakimova da erməni-rus əlaqələri sənədlər toplusuna yazdığı giriş mətnində təsdiq edir: "Şoşa kəndi, - bir sənəddə (sənəd 325) oxuyuruq ki, - daş qayalarla əhatə olunmuşdu". Bu "daş qayalar" həmin dövrdə 3 tərəfdən şəffaf sıldırımla əhatə olunmuş alınmaz qayalı yayla idi və düşmən hücumundan qorunmaq üçün təbii istehkam rolunu oynayırdı *(Армяно-русские отношения в первой трети XVIII века. (Сб. документов. Под редакцией Ашота Иоаннисяна), т.II, ч.I, Ереван, 1964, с. XLI)*

Erməni müəllifi Vahram Balayan Leonun tədqiqatlarındakı fikirlərinə əsaslanaraq yazır: "Bəziləri hesab edir ki, Şuşi öz adını şəhərin cənub tərəfində yerləşən Şoş adlı kənddən almışdır. Lakin Leo bu analogiyaya inanmır və qeyd edir ki, əksinə, kənd öz adını qaladan almalıdır və qala çox güman ki, qədim zamanlarda mövcud olmuşdur" *(Balayan V. Antik çağlardan günümüzə Artsax tarixi. Yerevan, 2002, s.40).* Sovet dövrü erməni tarixçiləri arasında bu fikir geniş yayılmadığı halda imperiya dağıldıqdan sonra, Qarabağa ərazi iddialarına haqq qazandırmaq məqsədilə geniş şəkildə yayılmışdır.

Şuşa şəhərinin salındığı ərazinin qədim yaşayış məskəni olması danılmaz həqiqətdir. Lakin burada qədim qalanın olması haqqında məlumatlar XVIII əsrin 20-ci illərində baş verən hadisələr zamanı xatırlanır. Belə ki, mövzu ilə bağlı yazan erməni müəlliflərinin əksəriyyəti erməni kimi qələmə verdikləri alban əsilli Avan yüzbaşı adlanan məlik Yeqanın 1717-ci ildə Qarabağa gəlib Şuşa qayasında möhkəmlənərək məşhurlaşması, qayaların üstündə yeni qala tikdirməsi və digər fəaliyyəti ilə bağlı geniş məlumat verirlər *(Хачатрян А.Н. Армянское войско в XVIII веке. Ереван, 1968, с.207-210; Мкртчян, 1980, s.147).*

*Bəs dövrün mənbələri bu hadisə ilə bağlı necə məlumat verir?*

Erməni-rus əlaqələri sənəd toplusunun II cildinin 1-ci kitabına 105 səhifəlik giriş mətni yazan Ter-Avakimova da Avanın "Şuşa qalasının ilk daşını qoyması" barədə general Matyuşkinin 19 dekabr 1725-ci il tarixli məktubunda məlumat verildiyini qeyd edir *(Сб. документов, 1964, c. XLI).* Yenə həmin giriş mətnində İvan Karapetin Qarabağda baş verən hadisələrlə bağlı erməni dilində tərtib edilən 18 iyul 1724-cü il tarixli məktubunda da "Sıldırım qayaların üstündə yeni qala tikilməsi" haqqında məlumat yer almışdır *(Сб. документов., 1964, c.XLII).*

Məlumatın əks olunduğu sənədlər isə toplunun II cildinin 2-ci kitabında yer almışdır. Erməni dilində olan 277 və 278 saylı sənədlərdə *(Sənədlər toplusu 1967, 184-188)* bəhs edilən hadisələr Sığnaq adlanan bölgədə baş vermiş və həmin qalanın Şuşa şəhərinin salındığı ərazi deyil, məhz Şuşa yaxınlığındakı erməni müəlliflərinin Daşaltı sözünü olduğu kimi tərcümə edərək Karin tak adlandırdığı yerin olduğunu müəyyən etmək mümkündür.

Sənədlər toplusunun II cildinin 2-ci kitabında yer alan 346 saylı sənəd - erməni dilində yazılmasına baxmayaraq kifayət qədər türk sözləri ilə zəngin olan 15 noyabr 1726-cı il tarixli Avan yüzbaşı və Ohan yüzbaşı tərəfindən imzalanan məktub diqqəti cəlb edir. Məktubda məliklər Osmanlı qüvvələrinə qarşı rus komandanlığından kömək istəyirlər. Burada Qarabağın xristian məlik və kovxalarına rəhbərlik edən Avan və Ohan yüzbaşıların Osmanlı sərəsgərinin qüvvələrini Bərdədə qarşılayıb, məğlub edərək onu Şuşaya gətirdikləri haqqında məlumat verilir. Burada da söhbət Pənahəli xan Cavanşir tərəfindən əsası qoyulan Şuşa qala-şəhərinin yerləşdiyi ərazidən deyil, Şuşakənd yaxınlığındakı Daşaltı istehkamından gedir *(Армяно-русские отношения в первой трети XVIII века. (Сб. документов. Под редакцией Ашота Иоаннисяна), т.II, ч.II, Ереван, 1967, с.186-187).*

Məntiqlə düşünsək, Şuşa qalasının köhnə qalıqları olsa idi, Pənahəli xan burada yeni bir qala şəhər salmaz, onu bərpa etdirərdi. Şuşanın əsasının Azərbaycan xalqının görkəmli sərkərdəsi və dövlət xadimi Pənahəli xan Cavanşir tərəfindən qoyulmasını inkar etməkdə ermənilərin məqsədi Azərbaycana qarşı ərazi iddialarına, Qarabağın qədim erməni torpağı olması haqqında uydurulan tarixə haqq qazandırmaqdan başqa bir şey deyildir.

*Şuşakəndin etnik tarixinin saxtalaşdırılması:* Şuşa şəhərinin öz adının qədim Şuşakənddən aldığını yazan erməni müəllifləri həm də dövrün sənədlərini saxtalaşdıraraq bu kənddə ermənilərin yaşadığını iddia edirlər. Tamara Minasyan yazır ki, Matenadaranda (Mesrop Maştos adına Ermənistan Qədim Əlyazmalar İnstitutu) 8211 sayı ilə saxlanılan bir sənəddə 1428-ci ildə Qarabağda Amaras kilsəsində xidmət edən yepiskop Manuel tərəfindən hazırlanmış bir İncildən bəhs olunur. Sənəddə deyilir: "Müqəddəs İncil itiuclu qələmlə ruhani bir insanın Ter Manuelin əli ilə 1428-ci (erməni ilində) Ağuan (Alban) ölkəsinin Amaras əyalətində Şuşu adlanan yerdə Müqəddəs Məryəmimizin himayəsi ilə yazıldı" *(Minasyan T. Arsax yazı mərkəzləri. Albom-etüd. Yerevan, 2015, s.47).* Daha sonra müəllif yazır: "Əlimizdə XVI əsrə aid Şuşu kəndinin adı keçən başqa bir əlyazma da var. 1575-ci ildə keşiş Hovhannes Müqəddəs Stepanos kilsəsində, Postanhankda Vərəndə əyalətində, mənim Şuşu adlanan kəndimdə təsvirli İncil nümunəsi hazırladı" *(Minasyan, 2015, s.47).*

Hər iki sənəddə Şuşa adlanan kəndin sakinlərinin etnik kimliyi haqqında məlumat verilmədiyini görürük. Hətta 1428-ci il tarixli sənəddə kəndin Alban ölkəsinə, Vərəndə əyalətinə məxsus olduğunun açıq-aşkar qeyd olunmasına baxmayaraq, erməni müəllifləri bu kəndin məhz ermənilərə məxsus olduğunu iddia edirlər. Ümumiyyətlə, yuxarıda qeyd etdiyimiz və buna oxşar digər sənədlərin hamısında oxşar hadisə erməni müəllifləri tərəfindən müxtəlif cür izah edilir. *(Bakur. Şuşa qala şəhəri. 1920-ci ilə qədərki tarixi. İrəvan, 2000, s.11-12).*

Bununla da erməni müəllifləri və onların havadarları XV-XVI əsrlərdə Qarabağda yerli erməni məskənlərinin olduğunu iddia edirlər.

XVI əsrin II yarısında baş vermiş Səfəvi-Osmanlı müharibələri nəticəsində Qarabağ bölgəsi dəfələrlə bu və ya digər tərəfin idarəçiliyində qalmışdır. Gəncə-Qarabag bəylərbəyliyini idarə edən Osmanlı məmurları tərəfindən 1593-1595-ci illərdə aparılan siyahıyaalmanın nəticəsində tərtib edilən dəftərin məlumatı çox mühümdür.

Bu siyahıyaalmanın nəticəsi olan 1593-cü il Gəncə Tapu Təhrir dəftərində Şaşa kəndinin adı iki dəfə qeyd olunmuşdur. Vərəndə nahiyəsinə tabe olan Şuşuqovaq kəndi "Karye-i Şuşukavak" *(Elif Kuş. 699 Numaralı Gence Vilayeti Tapu Tahrir Defteri H.1001(1593). Yüksek Lisans Tezi. Sakarya Üniversitesi, Sosyal Bilimler Enstitüsü, 2003, s.39-40)* şəklində qeyd olunaraq, əldə edilən gəliri 18000 axça olan müsəlman kəndi kimi Osmanlı məmuru möhtərəm çavuş Əhmədin ziyamətinə daxil olduğu vurğulanır *(Elif Kuş, 2003, s.234).*

Bütün bu faktlar bir daha erməni tarixçilərinin Şuşa şəhəri, Şuşa qalası, Şuşakənd haqqında saxta məlumatlarını təkzib edir və onların irəli sürdüyü iddiaların heç bir elmi əsası olmadığını sübut edir.

Erməni müəlliflərinin Şuşa qalasının salınması ilə bağlı tarixboyu irəli sürdüyü fərziyyələr, Şuşakəndin etnik tarixinin, Şuşa adının etimoloji mənşəyinin saxtalaşdırılması kimi əsassız iddiaları heç bir elmi əsasa söykənmir.

Şuşa bu gün Azərbaycanın ideoloji siyasət mərkəzlərindən birinə çevrilmişdir. Bu baxımdan Şuşanın bir simvol, bir rəmz olaraq Azərbaycan dövlətinin, Azərbaycan cəmiyyətinin həyatında rolu danılmazdır.

***Güntəkin NƏCƏFLİ,***
***tarix üzrə fəlsəfə doktoru, dosent,***
***Dövlət mükafatı laureatı***

# QİÇS infeksiyasının daha çox yayıldığı bölgələr açıqlanıb

İİV/QİÇS infeksiyasına daha çox Şirvan, Hacıqabul, Sumqayıt, Astara, Lənkəran, Masallı, Yevlaxda rast gəlinir.




AZƏRTAC xəbər verir ki, bunu Ümumdünya QİÇS-lə Mübarizə Gününə həsr edilmiş "dəyirmi masa"da Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktoru Famil Məmmədov deyib.

F.Məmmədov qeyd edib ki, Bakıda hər 10 min nəfərdən 7,9 faizi bu xəstəliyə yoluxur: "Bu kifayət qədər yüksək göstəricidir. Yoluxma mənbəyi ərazi olaraq qiymətləndirilir. Bölgələrdə xəstəliyin aşkar edilməsi istiqamətində laboratoriyalarımız mövcuddur".

# Azərbaycanın axtarışda olan üç vətəndaşı Rusiyadan ekstradisiya edilib

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan vətəndaşları Dadaşev Emil Ələkbər oğlu, Əzimov Ədalət Əzim oğlu və Mirzəyev Elçin Mirzə oğlunun ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatətləri Rusiyanın Baş Prokurorluğu tərəfindən təmin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hər üç şəxsin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulmuş cinayət əməllərini törətmələrinə əsaslı şübhələr müəyyənləşdirildiyindən barələrində təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərar qəbul edilməklə beynəlxalq axtarış elan edilib.

Bu il noyabrın 30-da həmin şəxslər Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Rusiyadan Azərbaycana gətiriliblər.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Orta dəhliz ortaq maraqlara xidmət edir




**Qafqaz bütün fatehlərin maraqlarının kəsişdiyi vacib region kimi həmişə diqqət mərkəzində olmuşdur. Tarixi geri vərəqləsək, minilliklər boyu işğalçıların ərazilərimizə can atdığını, bu yerlər uğrunda qanlı savaşlar getdiyini görəcəyik.**

Bax, belə bir başıbəlalı regionda Prezident İlham Əliyevin gərgin diplomatik səyləri iqtisadi və hərbi maraqları Qafqazda kəsişən bütün qüvvələri təhlükəsizləşdirə bilmiş, onların potensial gücünü münaqişələrin və müharibələrin dərinləşməsinə yox, qarşılıqlı əməkdaşlığın inkişafına və güclənməsinə çevirmişdir.

İlham Əliyevin siyasi xadim kimi gücü ondadır ki, o, səngərləri iqtisadi dəhlizlərə çevirməyi bacarır. Bu baxımdan Bakıda ADA Universitetində "Orta dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda keçirilən beynəlxalq konfrans maraqlı və bütün dünya üçün əhəmiyyətli tədbir kimi dəyərləndirilməlidir.

Bu gün Azərbaycanın beynəlxalq arenada oynadığı rol daha da güclənmişdir. Ölkədə mövcud olan dayanıqlı iqtisadiyyat, siyasi sabitlik və dövlətin perspektivləri düzgün proqnozlaşdırması daha uğurlu iqtisadi əlaqələrin və yeni əməkdaşlıq körpülərinin qurulmasına səbəb olmuşdur. Sözügedən tədbirdəki çıxışında İlham Əliyev birinci onu qeyd etdi ki, bizim açıq dənizə, okeanlara çıxışımız yoxdur: "Buna görə istər bizim enerji layihələrimiz, istərsə də nəqliyyat layihələrimiz olsun, hədəfimizə çatmaq üçün biz çox gərgin işləməli idik. Eyni zamanda bizim coğrafi mövqeyimizin üstünlüyü Avropa ilə Asiyanın arasında yerləşməyimizdir. Əslində, iki qitənin ortasında yerləşirik və bu bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir".

Mahiyyət etibarilə Prezidentin dedikləri min illər boyu hamıya bəlli olan sadə həqiqətlərdir. Amma dövlət başçısı hamıya bəlli olan bu sadə həqiqətləri yeni konseptual doktrinaya çevirməklə dövlət quruculuğunda müasir yaşam fəlsəfəsini formalaşdırmışdır. Ümumiyyətlə, Prezident İlham Əliyev əsrlərboyu Azərbaycanda maraqları naminə sərt toqquşmalara qoşulan böyük güclərin hamısını uzaqgörən müdrikliklə əməkdaşlığa cəlb edə bilmiş, sülh körpüləri salaraq yeni iqtisadi dəhlizlər yaratmışdır. Onların sırasında Orta dəhliz Şərq dövlətlərinin beyin məhsulu kimi xüsusi güçə malik olub, qeyri-adi əhəmiyyət kəsb edir.

Uzun illər boyu bu dəhlizlərin hər birinin yaranması üçün Azərbaycanda və ondan kənarda çox mühüm qərarlar verilmiş, böyük vəsaitlər xərclənmişdir. İlham Əliyev: "Beş il bundan əvvəl biz tərəfdaşlarımızla birlikdə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin açılışını etdik. İndi isə ölkəmizdən keçən artan yük həcmlərini gördükdə biz Bakı-Tbilisi-Qarsın Gürcüstan hissəsinin genişləndirilməsinə sərmayə yatırmağa başladıq. Bu layihə bizə 100 milyon ABŞ dollarından daha baha başa gələcək və biz bu layihəni bir il və ya ola bilsin il yarım müddətində bitirməyi planlaşdırırıq. Eyni zamanda "Şimal-Cənub" dəhlizi kimi digər nəqliyyat layihələri "Şərq-Qərb" dəhlizinə sinerji əlavə edəcək. Azərbaycan hər iki dəhlizin iştirakçısıdır və Azərbaycanda bu dəhlizlərlə bağlı əksər nəqliyyat və logistika infrastrukturu hazırdır".

Azərbaycan bu istiqamətdə mühüm addımlar atır - qatarların sürətinin artırılması üçün yeni yollar tikir, nəqliyyat infrastrukturuna sərmayə yatırır. Hava yükdaşımaları önə çəkilir, dəniz ticarət limanında yüklərin qəbulunun 15 milyon tondan 25 milyon tona qədər genişləndirilməsi zərurəti yaranır.

Bu gün isə Orta dəhliz, demək olar ki, bütün dünyanın diqqət mərkəzindədir. Artıq fəaliyyət göstərən nəqliyyat marşrutları bütün ölkələrin Xəzər regionuna daha dərin inteqrasiya olunmasına imkan verir. O cümlədən Azərbaycan Türkmənistandan daxil olan yüklərə vacib tranzit imkanı yaradır. Ələt Dəniz Ticarət Limanında onlar üçün xüsusi yer ayrılmış, türkmən qazı ilə bağlı svop əməliyyatlarına start verilmişdir. Prezidentin dediyi kimi, tamamilə yeni olan mövcud boru kəməri sistemi genişləndirilməlidir. "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan Trans-Adriatik boru kəməri iki il əvvəl tamamlansa da, bu gün həcmin iki dəfə - 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər artırılması gündəmə gəlir. Bunun üçün bütün pay sahiblərinin birləşməsinə və sərmayələrinə ehtiyac duyulur. Yunanıstan və Bolqarıstan arasında interkonnektorun açılışını nəzərə alsaq, vaxt itirmədən Trans-Balkan boru kəmərini cəlb etmək imkanı yaranmışdır. Tutumu 3 milyard kubmetr olan boru kəmərinin açılışı Azərbaycan üçün maraqlıdır. Eyni zamanda bu yay Avropa Komissiyası ilə təchizatı iki dəfə artırmaq üçün anlaşma memorandumu da imzalanmışdır.

Prezident İlham Əliyev Orta dəhlizə münasibətini belə izah edir: "Azərbaycanda bütün nəqliyyat layihələri - istər "Şərq-Qərb", istər "Şimal-Cənub" dəhlizləri, dəmir yolu və ya magistral yol, hava limanları, donanma, yaxud dəniz limanı - hər şey hazırdır. Eyni hazırlıq səviyyəsi dəhliz marşrutu boyunca yerləşən bütün ölkələrdə olmalıdır. Bu, belədirmi? Xeyr. Lakin biz müsbət dinamika görürük. Məsələn, təxminən bu yaxınlarda iştirak etdiyim beynəlxalq tədbirlərdən birində Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolunun tikintisi ilə bağlı razılıq imzalandı. Bu layihə uzun illər dayandırılmışdı. İndi isə hər kəs başa düşür ki, yüklərin Xəzər istiqamətində çatdırılmasına, Trans-Xəzər imkanlarından geniş şəkildə istifadə etməyə ehtiyac var. Ona görə də bildiyim qədəri ilə Çin tərəfindən maliyyələşdirilən bu layihə daşımalara əhəmiyyətli dərəcədə töhfə vermək üçün böyük imkana malikdir".

Bu sırada Pakistanın Qvadar limanının böyük beynəlxalq qovşağa çevrilməsini qeyd etmək lazımdır. Bu limanın Azərbaycandan keçən dəhlizlərə birləşməsi sadəcə tarif məsələlərinin dəqiqləşdirilməsi və uyğunlaşdırılması ilə bağlıdır. Azərbaycan, Türkiyə və Qazaxıstan arasında fəal əməkdaşlıqda Gürcüstan da öz yerini tuta bilər.

Ən vacib bir məqam ondan ibarətdir ki, ölkəmizin nəqliyyat şirkətlərinin səyləri cəmlənərək bir nöqtəyə fokuslanmışdır. Dəmir yolları, dəniz limanı, Xəzər dəniz gəmiçiliyi və bura aidiyyəti olan digər qurumlar arasında tam koordinasiya yaradılmış və bu münasibətlər Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən tənzimlənir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Bakıda KOB-ların gücləndirilməsi ilə bağlı beynəlxalq tədbir keçirilib

**Bakıda Kiçik və Orta Müəssisələr üçün Beynəlxalq Şəbəkənin (INSME) 18-ci İllik Toplantısı keçirilib. INSME və bu təşkilata üzv olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə keçirilmiş tədbir "KOB-ların gücləndirilməsi: İqtisadi diversifikasiya və yaşıl inkişaf" mövzusuna həsr olunub.**

İlk dəfədir ki, ölkəmizdə təşkil olunan bu toplantıda dünyanın müxtəlif ölkələrindən dövlət rəsmiləri, iş adamları, beynəlxalq təşkilatların və INSME-yə üzv qurumların nümayəndələri iştirak ediblər.

Builki toplantının əsas məqsədi yaşıl inkişafda innovasiyaların rolunu təşviq etmək, qlobal böhranlar zamanı sahibkarlığın potensialını üzə çıxarmaq, KOB-ların enerji böhranlarının öhdəsindən necə gələ biləcəyini və hökumətlərin necə müdaxilə etməli olduğunu müzakirə etmək, bu istiqamətdə yeni ideya sahibləri arasında şəbəkələşməni genişləndirməkdir.

Tədbirin açılışında iqtisadiyyat naziri Mikayıl Cabbarov, Kiçik və Orta Müəssisələr üçün Beynəlxalq Şəbəkənin (INSME) prezidenti Sergio Arzeni, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun rəhbəri Yusif Abdullayev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, "ToJoy"un prezidenti və Belçikanın keçmiş baş naziri Yves Leterme, Bolqarıstanın Kiçik və Orta Biznesin Təşviqi Agentliyinin baş direktoru Boyko Takov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış ediblər.

Sonra KOBİA və Bolqarıstanın Kiçik və Orta Biznesin Təşviqi Agentliyi, eləcə də INSME və Dünya Biznes Mələkləri Forumu arasında əməkdaşlıq haqqında anlaşma memorandumları imzalanıb.

Tədbir gün ərzində "KOB-lar üçün davamlılıq və enerji problemləri", "KOB-ların cari və gələcək böhranların öhdəsindən gəlməyə hazır olması", "Yaşıl inkişaf üçün innovasiyaların təşviqi" və "Siyasət cavabları" mövzularında panel müzakirələrlə öz işini davam etdirəcək.

Bu gün isə INSME üzvlərinin iştirakı ilə təşkilatın Baş Assambleyasının iclası keçiriləcək.

Qeyd edək ki, sıralarında dünyanın müxtəlif ölkələrindən 70-ə yaxın üzvü birləşdirən INSME KOB sahəsində fəaliyyət göstərən qurumlar arasında təcrübə mübadiləsinin genişləndirilməsini, bu sahədə qabaqcıl mexanizmləri, dövlət-özəl dialoqunu və beynəlxalq tərəfdaşlığı təşviq edir. KOBİA 2020-ci ildən INSME-nin üzvüdür.

## Evsiz şəhid ailəsi və qazi qalmayacaq

***44 günlük Vətən müharibəsində şəhid olanların ailələri və qazilər hərtərəfli diqqət və dəstəklə əhatə olunublar. Onlara göstərilən qayğıkeşliyi artırmaq üçün bir sıra hüquqi-normativ aktlar qəbul edilib. Hər bir şəhid ailəsi və müharibə əlili üçün elektron baza yaradılıb. Məqsəd bu kateqoriyadan olan insanların dövlətin onlara yaratdığı imkanlardan istifadəsini asanlaşdırmaqdır.***

**Xəbər verildiyi kimi, şəhid ailələri və müharibə əlilləri üçün bu günlər daha 410 fərdi evin tikintisi yekunlaşıb. 54 fərdi evin tikintisi isə tamamlanmaq üzrədir. Məlumatda qeyd edilmişdir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin qayğıkeşliklə əhatə olunması nazirlik üçün başlıca fəaliyyət istiqamətlərindəndir. Buna misal olaraq həmin kateqoriyadan olan vətəndaşların mənzil və ya fərdi evlərlə təminatı proqramının son illər dəfələrlə genişləndiyi, bu sahədə cari il üçün nəzərdə tutulan planın uğurla icra edildiyi göstərilib.**

**Məlumatda paytaxtın Xətai rayonunda 5 saylı Bakı DOST mərkəzinin və digər bölgələrdə yeni sosial obyektlərin açılışına hazırlıq işlərindən də bəhs olunmuşdur. Yaxın vaxtlarda Bərdədə DOST və Peşə Hazırlığı, Şəmkirdə Uşaq Reabilitasiya mərkəzlərinin açılacağı, Şamaxıda Psixonevroloji sosial xidmət müəssisəsinin əsaslı təmiri və yeni korpusunun inşasının yekunlaşdığı qeyd edilmişdir.**

**Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində son bir ildə 14 təlim istiqamətindən əlavə, daha 8 fəaliyyət istiqaməti üzrə təlimlər təşkil olunmuşdur. Burada təlim kurslarındakı 281 benefisiardan 200-ə qədəri əlilliyi olan şəxslər və şəhid ailələri üzvləri, digərləri isə valideyn himayəsindən məhrum şəxslər, aztəminatlı ailələrdir.**

**Benefisiarlarla bağlı kompleks reabilitasiya işləri də aparılıb. Odur ki, təlimlərə qatılan şəxslərin həm yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsində, həm də psixo-sosial vəziyyətlərində müsbət nəticələr əldə olunur.**

**Əmək, məşğulluq, sosial müdafiə sahələrində yeni altsistemlərin, reyestrlərin, informasiya ehtiyatlarının yaradılması istiqamətində aparılan işlər də diqqət mərkəzindədir. Bu il e-gov üzrə müraciət sayı 8,9 milyon, e-sosial.az portalına müraciət sayı 9,7 milyon olub. 280,5 min proaktiv təyinat aparılıb, eləcə də proaktiv qaydada 157 mindən çox sosial sığorta nömrəsi açılıb, 466,6 min e-arayış verilib.**

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# "Yaşıl işığ"a doğru...

## Ölkəmizin bərpaolunan enerji istehsalında lider olmaq şansı böyükdür

**"Yaşıl enerji " məsələləri getdikcə gündəmdə özünə daha geniş yer alır. Start verilmiş layihələr irəliləyir, xarici şirkətlərin və digər qurumların ölkəmizin bu sahədəki potensialına marağı artır, danışıqlar fəallaşır, yeni işlər planlaşdırılır.**

Ötən ay da "yaşıl enerji"yə doğru növbəti addımlar atılıb. İlk növbədə Prezident İlham Əliyevin "Bərpaolunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 5 dekabr tarixli sərəncamı ilə yaradılmış komissiyanın yenilənmiş tərkibdə 2-ci iclasının keçirildiyini qeyd edək. İclasda günəş, külək, o cümlədən dənizdə külək enerjisi layihələrinin həyata keçirilməsi, nəzərdə tutulan sahələrin müəyyənləşdirilməsi, minatəmizləmə işləri, layihələrin şəbəkəyə inteqrasiyası prosesi, tikintiyə icazə sənədlərinin verilməsi prosedurları haqqında məlumat verilib. Həyata keçirilməkdə olan "Qaradağ", "Xızı-Abşeron", "Şəfəq" bərpaolunan enerji layihələrinin icra vəziyyəti barədə təqdimatlar dinlənilib.



Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın dünyada özünü etibarlı tərəfdaş kimi təsdiqləməsi həmçinin bərpaolunan enerji layihələrinə xarici investisiya qoyuluşuna zəmin yaradıb. O cümlədən azad edilmiş ərazilərdə. Məsələn, Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə quruda və dənizdə ilkin mərhələdə 4, növbəti mərhələdə isə 6 heqavat gücündə həyata keçiriləcək günəş və külək enerjisi layihələrinin bir qismi məhz işğaldan azad edilmiş əraziləri əhatə edir.

Yeri gəlmişkən qeyd edək ki, həmin ərazilərdə 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə çoxistiqamətli tədbirlərlə ümumilikdə ölkədə bərpaolunan enerjinin inkişafı geniş vüsət alıb. Bu ərazilərin bərpaolunan enerji mənbələri potensialının 10 min meqavata yaxın olduğu bəllidir. Hazırda bp şirkəti ilə Cəbrayılda ildə təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcəyi proqnozlaşdırılan 240 meqavat gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının layihəsi üzrə işlər aparılır.

Kiçik su-elektrik stansiyalarının (KSES) bərpasına, Laçın və Kəlbəcərdə külək-elektrik stansiyalarının inşasına xarici investisiyanın cəlb edilməsi də qarşıda dayanan vəzifələrdəndir. Odur ki, hazırda ümumi gücü 320 meqavatdan artıq 50-dən çox KSES-in bərpa və inşası üçün araşdırmalar gedir. Ümumi gücü 33,4 meqavat olan 7 KSES-in isə bərpa-tikintisi artıq həyata keçirilir.

Zəngilanda "ağıllı kənd" layihəsi də "yaşıl enerji" konsepsiyasına uyğun bərpaolunan enerji mənbələrindən istifadə edilməklə və enerji səmərəliliyi tələbləri nəzərə alınmaqla gerçəkləşir. Qeyd edək ki, "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmır, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti təşviq edir. Yəni enerjinin ötürülməsində, paylanmasında ən səmərəli və "ağıllı sistem"lərdən, istilik, soyutma və isti su təchizatında, həmçinin küçə və yolların işıqlandırılmasında "yaşıl texnologiyalar"dan, elektrik nəqliyyat vasitələrindən istifadə, elektrik doldurma məntəqələrinin, tikililərin damında günəş panellərinin quraşdırılması, enerji səmərəliliyi kimi çoxşaxəli məsələlər əhatə olunur.

"Cari ilin sentyabrında Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı nümayəndəliyinin rəhbəri oldum. Bu, mənim üçün böyük şərəfdir. AYİB Azərbaycanda bir çox layihə həyata keçirir və "yaşıl layihələr" mənə xüsusilə zövq verir. Bu gün Azərbaycanın bərpaolunan enerji istehsalında və beynəlxalq nəqliyyat mərkəzinə çevrilməsində lider olmaq şansı var." Bu sözləri isə AYİB-in ölkəmizdəki nümayəndəliyinin rəhbəri K.Mahmudova deyib.

"Gəncədə biz iki belə layihə həyata keçiririk. Birincisi tullantıların emalı və xəstəliklərə yoluxma riskinin azalması, ikincisi bütün şəhərin LED işıqlandırması ilə bağlıdır. Tullantıların təkrar emalı təbiətin qorunmasında və səhiyyə xərclərinin azaldılmasında böyük rol oynayır. Gəncədə şəhər işıqlandırmasının optimallaşdırılmasına da kömək edirik, yəni şəhərdə işıq beş dəfə çox olacaq və xərclər 76 faiz azalacaq", - deyə K.Mahmudova qeyd edib.

Energetika Nazirliyində Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirilən görüşdə də Azərbaycanın gələcəkdə "yaşıl enerji" ixracı imkanlarına toxunulub, bu istiqamətdə Qara dəniz sualtı elektrik enerjisi və rəqəmsal qoşulma layihəsinin ölkəmiz üçün əhəmiyyətindən bəhs edilib, bu layihədə Dünya Bankının iştirakı vurğulanıb.

Eləcə də nazirliklə Beynəlxalq Maliyyə Korporasiyası arasında imzalanmış dənizdə külək enerjisindən istifadə üzrə əməkdaşlığa dair anlaşma memorandumundan irəli gələn məsələlər, Xəzər dənizinin Azərbaycana aid hissəsinin külək enerjisi potensialının reallaşdırılması üçün atılan addımlar müzakirə edilib.

Bütün bunlar göstərir ki, ölkəmizin həqiqətən də bərpaolunan enerji istehsalında və ixracında lider olmaq şansı böyükdür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Zəngəzur dəhlizi gələcəkdə Trans-Avropa nəqliyyat şəbəkələrinə əlavə oluna bilər

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Belçikanın paytaxtı Brüsseldə işgüzar səfərdədir. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində nazir Avropa İttifaqının nəqliyyat komissarı Adina Valeanla görüş keçirib.**

Görüş zamanı Azərbaycan və Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə aviasiya sahəsində əməkdaşlıq, o cümlədən Trans-Avropa nəqliyyat şəbəkələri (TEN-T) çərçivəsində layihələrin həyata keçirilməsi, Zəngəzur dəhlizinin gələcəkdə bu şəbəkələrə əlavə olunması məsələləri müzakirə olunub.

Görüşün davamında Yüksək Səviyyəli Nəqliyyat Dialoqunun ikinci iclasının Bakıda keçirilməsi ilə bağlı məsələlər müzakirə predmeti olub.

Avropa İttifaqının nəqliyyat komissarı Adina Valeana ölkəmizdə həyata keçirilən nəqliyyat və rəqəmsallaşma layihələri, o cümlədən Zəngəzur dəhlizinin əhəmiyyəti və işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər barədə ətraflı məlumat verilib.

Həmçinin diqqətə çatdırılıb ki, Orta dəhliz - Cənubi Qafqaz və Mərkəzi Asiyadan keçən multimodal nəqliyyat marşrutu ətrafında əməkdaşlıq üçün böyük potensial mövcuddur. Dəhliz regionun Avropa və qlobal təchizat zəncirlərinə inteqrasiyası üçün müəyyən imkanlar açacaq.

## "Made in Azerbaijan" brendinin çeşidləri artır

Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə xarici investisiyanın yatırılması üçün hər cür şərait yaradılıb. Elə bunun nəticəsidir ki, son illərdə ölkəmizdə iqtisadiyyatın qeyri-neft sektorunda müxtəlif gəlirli sahələrə sərmayə qoyan xarici şirkətlərin sayı da artmaqdadır. Bu sahələrdən biri də yeyinti sənayesinin bir qolu olan şərabçılıqdır. Aqrar sahənin inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları xarici investorları Azərbaycana cəlb edir.

Bu istiqamətdə nümunələrdən biri də ötən gün İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-da keçirilən tədbirdir. Belə ki, Rusiyanın "Abrau-Durso" Şirkətlər Qrupu qazsız şərabların istehsalını elan edərək, Azərbaycanda Şəki Şərab Zavodunda köpüklü şərablar yaratmağı planlaşdırır. Rusiyalı investorun kurasiyası və onun biznes təşəbbüslərinin həyata keçirilməsinə dəstək isə AZPROMO tərəfindən həyata keçirilir. Şirkət 2023-cü ildə 4 milyon şüşə şərab istehsal etmək və ixracatda sənaye liderlərindən birinə çevrilmək niyyətindədir. Köpüklü şərabların istehsalının təşkili, genişmiqyaslı layihənin həyata keçirilməsi üçün lazımi avadanlıqlar alınıb. Azərbaycanda ilk köpüklü şərabların buraxılması 2023-cü ilin ikinci rübünə planlaşdırılır. Rusiyadan müxtəlif qiymət kateqoriyalarına aid ən yaxşı "Abrau-Durso" köpüklü şərabların idxalına da başlanılıb.

Tədbirdə çıxış edən AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev qeyd edib ki, agentliyin əsas fəaliyyətlərindən biri ölkədə qeyri-neft ixracının artırılması və bu sahəyə investisiyaların cəlb edilməsidir. Xarici ölkələrdən investorların gəlməsi və Azərbaycanda investisiya yatırımları çox önəmlidir. Onun sözlərinə görə, 2022-ci ildə "Abrau-Durso" Şəki Şərab Zavodunun yaxınlığında 30 hektar üzüm bağı sahəsini alıb: "Abrau-Durso"nun strategiyası üzüm bağlarının salınması üçün ümumi ərazilərin sistemli şəkildə 500 hektara qədər artırılmasını və zəruri olan yerlərdə damcılı suvarma sistemlərinin quraşdırılmasını nəzərdə tutur. Burada istehsal olunan qırmızı, ağ və oynaq şərabların Rusiya və digər xarici ölkələrə ixracı nəzərdə tutulur".

"Abrau-Durso" Şirkətlər Qrupunun prezidenti Pavel Titov çıxışında deyib ki, xaricdə istehsala sərmayə yatırmaq çətin və çoxmərhələli işdir. O göstərdiyi dəstəyə görə AZPROMO-ya təşəkkür edib: "Agentlik sayəsində biz qısa müddət ərzində bütün rəsmiləşmə prosesini bitirib şərab istehsalına başlaya bildik. Əminəm ki, Azərbaycanda istehsal etdiyimiz məhsullar istehlakçılar tərəfindən Rusiya istehsalı olan "Abrau-Durso" şərablarından heç də az olmayan yüksək qiymət alacaq".

P.Titov bildirib ki, şərab sənayesinə dövlət dəstəyi, o cümlədən ixrac istiqamətinin inkişafı şirkətin bu il Şəkidə istehsal etdiyi 600 min şüşədən çox şərabı Rusiyaya ixrac etməsinə imkan verib.

Tədbirdə "Abrau-Durso" Şirkətlər Qrupunun enoqastronomik layihə həyata keçirdiyi də bildirilib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# Dünya üçüncüsü mundialla vidalaşdı

## Mərakeş isə 1/8 finala qrup lideri kimi yüksəldi

Dünən F qrupunda 3-cü tura yekun vurulub. Qrupun əsas matçında "köhnə qitə" təmsilçiləri - Belçika və Xorvatiya yığmaları qarşılaşıblar. Görüşdə 90 dəqiqə ərzində qapılara qol vurulmayıb. Qolsuz heç-heçə ilə başa çatan oyunda növbəti mərhələyə yüksələn Xorvatiya millisi olub.

Xorvatiya 1994-cü ilə qədər Yuqoslaviyanın tərkibində beynəlxalq oyunlara çıxıb. Yerli federasiya buna qədər FİFA-nın rəsmi üzvü olmayıb. Xorvatlar 1994-cü ildən quruma üzv olan ölkələr arasına daxil olublar. Ləqəbi "damalılar", "blazerlər" olan milli "DÇ-2022"yə qədər 5 mundialda iştirak edib. Yığmanın ən böyük uğuru son mundialda gümüş medal qazanmasıdır. Rusiyada keçirilən Dünya çempionatında finala qədər yüksələn xorvatlar həlledici oyunda Fransaya uduzublar. Xorvatiya mundialların final mərhələsinə qədər yüksələn ən gənc yığmadır.

"Damalılar" 1998-ci ildə keçirilən Dünya çempionatında da bürünc medal qazanıblar. Xorvatiya futbol tarixinin ən tanınmış oyunçularından olan Davor Şukerin bombardir olduğu mundialda komanda yarımfinalda Fransaya uduzub, 3-cü yer uğrunda matçda isə Niderlandı məğlub etmişdi. Şuker bu mundialda 6 qolla bombardir olub.

Xorvatiya dünya çempionatında ilk matçına 1998-ci ildəki mundialda çıxıb. Komanda Yamaykanı 3:1 hesabıyla məğlub edib. Mundiallardakı ən böyük hesablı qələbə Kameruna qarşı olub. "Damalılar" 2014-cü ildə Afrika təmsilçisini 4:0 hesabıyla məğlub ediblər.



Xorvatiya yığmasının heyətinin dəyəri 369 milyon avrodur. Millinin ən dəyərli oyunçusu Yosko Qvardioldur. Almaniya "Leypsiq"ində çıxış edən müdafiəçinin qiyməti 60 milyon avrodur. Komandada "Çelsi"dən Mateo Kovaçiç, "Real"dan Luka Modriç, "İnter"dən Marselo Brozoviç kimi ulduz futbolçular çıxış edirlər.

Belçika millisi isə mundiallarda ən böyük uğuruna 2018-ci ildə imza atıb. Rusiyanın evsahibliyi etdiyi yarışı belçikalılar 3-cü sırada tamamlayıblar. Yarımfinalda həmin mundialın çempionu Fransaya uduzan (0:1) Belçika yığması 3-cülük uğrunda matçda İngiltərədən üstün olub - 2:0.

Ləqəbi "qırmızı şeytanlar" olan komanda tarixində 1 dəfə beynəlxalq arenada titul qazanıb. Belçika yığması yeganə kubokunu 1920-ci ildə qazanıb. Komanda həmin zaman Olimpiya çempionu olub.

Qırmızı şeytanlar"ın heyətinin dəyəri 554 milyon avrodur. Ən bahalı oyunçu Kevin de Bruynedir. "Mançester Siti"də çıxış edən yarımmüdafiəçinin qiyməti 85 milyon avrodur. Millinin çalışdırıcısı Roberto Martines 2016-cı ildən bu postu tutur.

* * *

Qrupun digər matçında isə mundialla ötən turdan vidalaşan Kanada Mərakeşlə üz-üzə gəlib. Matç Mərakeşin 1:2 hesablı qələbəsi ilə başa çatıb. Bu qələbə ilə Mərakeş növbəti mərhələyə qrup lideri kimi yüksəlib.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **1** | **Mərakeş** | **3** | **2** | **1** | **0** | **4-1** | **7** |
| **2** | **Xorvatiya** | **3** | **1** | **2** | **0** | **4-1** | **5** |
| 3 | Belçika | 3 | 1 | 1 | 1 | 1-2 | 4 |
| 4 | Kanada | 3 | 0 | 0 | 3 | 2-7 | 0 |

Mərakeş 6 dəfə dünya çempionatlarında iştirak edib. Millinin mundiallarda ən böyük uğuru 1986-cı ilə təsadüf edir. İngiltərə, Polşa və Portuqaliya ilə bir qrupda mübarizə aparan "Atlas aslanları" növbəti raunda qrup birincisi kimi çıxıb. Yığma 1/8 finalda Qərbi Almaniyaya uduzaraq (0:1) mundialla vidalaşıb.

Afrika təmsilçisinin heyətinin dəyəri 227,40 milyon avrodur. Komandanın 25 üzvü legioner həyatı yaşayır. Ən dəyərli oyunçu Əşrəf Hakimidir. PSJ-də forma geyinən müdafiəçinin qiyməti 65 milyon avrodur. Millidə "Bavariya"dan Nussar Mazraui, "Çelsi"dən Hakim Ziyeş kimi ulduz futbolçular çıxış edirlər.

Millini Valid Reqraqui çalışdırır. O, bu ilin avqustunda komandaya baş məşqçi təyin olunub.

Kanada isə ilk dəfə 1986-cı ildəki mundiala qatılıb. Komanda 1985-ci ildə KONKAKAF çempionatını qalib bitirib və dünya Çempionatına vəsiqə qazanıb. Bu, yığma tarixinin ən böyük uğurlarındandır. Digər nailiyyəti isə 2001-ci ildə KONKAKAF Qızıl Kubokunu qazanmaq olub.

### *Ötən günün nəticələri*

**F qrupu**

| | |
|---|---|
| Xorvatiya- Belçika | 0:0 |
| Kanada- Mərakeş | 1:2 |

### *2 dekabr təqvimi*

**H qrupu**

C.Koreya- Portuqaliya (19:00)
Qana- Uruqvay (19:00)

**G qrupu**

Serbiya- İsveçrə (23:00)
Kamerun- Braziliya (23:00)

# "Bizim üçün yeni turnir başlayacaq"



**Fransa millisinin baş məşqçisi Didye Deşam "DÇ-2022"nin qrup mərhələsinin 3-cü turunda Tunisə uduzduqları matç (0:1) barədə danışıb.**

1/8 finala hələ 2-ci tur vəsiqəni təmin edən komandanın çalışdırıcısı deyib: "Qrizmannın qolunun sayılmalı olub-olmadığını bilmirəm. Bəlkə də, həmin epizodda ofsayd var idi. Hakimin bunu başa düşməsi üçün vaxt lazım oldu. Sevincimiz çox çəkmədi. Amma qola layiq idik. Qəbul etdiyim qərarlar bizim üçün çətin oldu. 4 gündən sonra təcrübəmizdən öz xeyrimizə istifadə etməli olacağıq. Bir neçə futbolçunun səhhəti üçün risk var idi. İki oyunu yüksək intensivliklə keçirdik. Gənc futbolçular meydana çıxdılar. Onlar dünya çempionatı matçının necə olduğunu gördülər və fərqi hiss etdilər. Məqsədimizə çatdıq. Bizim üçün yeni turnir başlayacaq".

Qeyd edək ki, Tunislə matçda Antuan Qrizmannın 90+8-ci dəqiqədə vurduğu qol ofsayd səbəbindən qeydə alınmayıb. Görüş Tunisin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Buna baxmayaraq, Fransa D qrupunun lideri olub. Komanda ötən tur 1/8 finala vəsiqəni təmin edib.

# 16 illik həsrətə son



**Avstraliya yığmasının 16 illik həsrəti başa çatıb. "Kenqurular" tarixində ikinci dəfə dünya çempionatının pley-offuna vəsiqə qazanıb.**

Qrem Arnoldun yetirmələri cari mundialın D qrupunda Fransanın ardından ikinci pilləni tutaraq 6 xalla 1/8 finala yüksəlib. "Yaşıl qitə" təmsilçisi 2006-cı ildə Almaniyada keçirilən mundialda ilk dəfə belə uğurla yadda qalmışdı.

Qətərdə keçirilən turnirin ilk turunda son dünya çempionu Fransaya 1:4 uduzan avstraliyalılar növbəti oyunlarda Tunis və Danimarka millilərini minimal hesabla üstələyib. Bununla onlar ilk dəfə dünya çempionatında ardıcıl 2 qələbə qazanıblar.

# Messidən rekord və antirekord



**Argentina millisinin kapitanı Lionel Messi həmyerlisi Dieqo Maradonanın rekordunu yeniləyib. O, "DÇ-2022"nin 3-cü turunda Polşa ilə keçirilən oyunda (2:0) meydana çıxmaqla bu rekordu qırıb. Həmin qarşılaşma Messinin dünya çempionatlarında 22-ci matçı olub. Maradonada isə bu göstərici 21-dir. Hər iki oyunçunun aktivində 8 qol var.**

Bununla yanaşı, argentinalı futbolçu dünya çempionatlarının antirekorduna da şərik olub. Belə ki, 35 yaşlı ulduz mundiallarda 2 penalti qaçıran ikinci futbolçudur. O, "DÇ-2022"nin qrup mərhələsinin 3-cü turunun görüşündə Polşa komandasının qapısına təyin olunan 11 metrlik zərbədən yararlana bilməyib. Bu, Messinin ikinci belə uğursuzluğudur. Cənubi amerikalı "DÇ-2018"də də xətaya yol verib. Messi İslandiya ilə matçda penaltini boşa verib. Bununla da Messi Asamoa Qyana çatıb. Qana millisinin üzvü "DÇ-2006"da Çexiya, 4 il sonra Uruqvayın qapısına təyin olunan penaltini vura bilməyib.

# Növbəti baş məşqçi istefası



**Qətərdə keçirilən "DÇ-2022"də daha bir baş məşqçi komandasını tərk edib. Belə ki, Xerardo Martino Meksika yığmasının çalışdırıcısı vəzifəsindən ayrılıb.**

Müqaviləsi başa çatan mütəxəssis komandada qalmayacağını açıqlayıb. Buna komandanın qrupdan çıxa bilməməsi səbəb olub. Son turun görüşündə Səudiyyə Ərəbistanına 2:1 hesabı ilə qalib gələn şimali amerikalılar 3-cü yerlə kifayətləniblər.

Qeyd edək ki, "Barselona"(İspaniya) və Argentinanın sabiq baş məşqçisi 2019-cu ildən Meksikanı çalışdırırdı.

# Kurtuadan iddialara cavab



Belçika millisinin qapıçısı Tibo Kurtua komandada futbolçular arasında mübahisə yaranması iddiaları ilə bağlı açıqlama verib. Qolkiper Mərakeşə məğlubiyyətdən (0:2) sonra komanda yoldaşları arasında dava düşmədiyini deyib: "Mərakeşlə oyundan sonra paltardəyişmə otağında heç nə olmadı. Baş məşqçi gəldi və bir neçə dəqiqə danışdı. Komandamızda problem yoxdur. Qarışıq vəziyyətdir. Bəzi situasiyalar bizi birləşdirir. Bəzi şeylər yazılır, lakin bunlar yalandır. Dava iddiasını kim yayıbsa, onun millidəki son günü olacaq".

# Levandovski fransızları favorit görür



**"Argentinaya qarşı oyunun çətin olacağını bilirdik. İlk dəqiqədən mübarizə apardıq, amma yekunda uduzduq. Fasilədən sonra qol buraxmaq çətin oldu. Argentinanın çox yaxşı oyunçuları var. Uduzsaq da, yekunda növbəti mərhələyə yüksələ bildik".**

"Qol.az" xəbər verir ki, bu sözləri Polşa millisinin futbolçusu Robert Levandovski mundialın qrup mərhələsinin 3-cü turunda Argentinaya 0:2 hesabı ilə uduzduqları oyundan sonra deyib. Məğlubiyyətə baxmayaraq, Polşa qrup 2-cisi kimi növbəti mərhələyə yüksəlib. Komanda 1/8 finalda Fransa ilə qarşılaşacaq.

Levandovski həmin görüşlə bağlı söyləyib: "Favorit Fransadır. Onların əla komandası var. Amma biz Fransanın Tunisə uduzduğu oyunu da gördük. Beləliklə, hər şey mümkündür. Bu bizim üçün böyük sınaq olacaq. Biz bu gündən daha yaxşı oynamalı olacağıq".

Qeyd edək ki, dekabrın 4-də keçiriləcək Fransa - Polşa görüşü Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.

# "Çempion olacağımızı düşünmək axmaqlıqdır"



**"Yaxşı oyun oynadıq və eyni məcrada davam etməliyik. Polşa əks-hücumlarda yaxşı oynayan komandadır, amma buna imkan vermədik. Biz çempionatın favoriti deyilik, sadəcə, titul uğrunda mübarizə aparacaq komandayıq. Bu gün qalib gəlməklə çempion olacağımızı düşünmək axmaqlıqdır".**

Bu sözləri Argentina millisinin baş məşqisi Lionel Skaloni qrup mərhələsinin sonuncu turunda Polşaya 2:0 hesabı ilə qalib gəldikləri oyunu şərh edərkən deyib.

Mütəxəssis iki gündən sonra 1/8 finalın oyununa çıxacaqları ilə bağlı söyləyib: "Bu, mənə dəlilik kimi görünür. Biz hazırda stadiondayıq, Avstraliya isə istirahət edir. Qrupda birinci olduğumuzu nəzərə alsaq, bu, çox az müddətdir. Daha çox dincələ bilərdik".

Qeyd edək ki, Argentina 1/8 finalda dekabrın 3-ü Avstraliya ilə qarşılaşacaq. Görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Qakpo Niderlandın tarixinə düşdü



**Niderland millisinin futbolçusu Kodi Qakpo yeni rekorda imza atıb. 23 yaşlı hücumçu dünya çempionatları tarixində ilk 3 matçda fərqlənən ilk niderlandlı oyunçu olub.**

Qakpo bundan başqa, mundiallarda ardıcıl 3 oyun qol vuran 4-cü niderlandlı futbolçu olub. Bundan əvvəl Yohan Neskens (1974-cü il), Dennis Berqkamp (1994-cü il) və Uesli Sneyder (2010-cu il) bu uğuru qazanıblar.

*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə

16 yanvar 2023-cü il tarixdə saat 15:00-da "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının Ümumi Yığıncağının növbədənkənar iclası keçiriləcək.

**Ünvan: Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42. Telefon: 447-00-55.**

İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib. Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## К сведению акционеров ОАО "БАНК ОФ БАКУ"

16 января 2023-го года в 15:00 состоится внеочередное заседание Общего Собрания Акционеров Открытого Акционерного Общества "Банк оф Баку".

**Адрес: Головной Офис Банка, Баку AZ1069, проспект Ататюрка, 42. Телефон: 447-00-55.**

Повестка заседания и уведомление высланы акционерам. Материалы по повестке можно получить по указанному адресу.





# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramının icrası məqsədilə dərman vasitələrinin satın alınması ilə bağlı açıq

### *tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (Əlaqələndirici şəxs: Səbinə Məmmədova, telefon: (+994 12) 310-07-70 (daxili 4444), E-mail: **smammadova@its.gov.az)** ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Xroniki böyrək çatışmazlığı üzrə tədbirlər proqramının icrası məqsədilə dərman vasitələrinin satın alınması.

İştirak haqqı: 1,500.00 (bir min beş yüz) manat.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) *Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
2) *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3) *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış (01.12.2022-ci il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);*
4) *İddiaçının son (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
5) *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
6) *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
7) *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
8) *Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması və yaxud müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd -* ***Kommersiya məhkəməsindən və ya Dövlət Vergi Xidmətindən Yüklülük haqqında arayış*** *(01.12.2022-ci il tarixdən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);*
9) *Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması haqqında arayış* ***(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır);***
10) *Sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış* ***(malgöndərən uçotda olduğu statistika orqanından alır);***
11) *Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd* ***(vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);***
12) *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
13) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 09.01.2023-cü il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 17.01.2023-cü il saat 18:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 18.01.2023-cü il saat 17:00-da Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

tabeliyində olan İstehsalat Xidmətləri İdarəsinin Xaçmaz rayonu İstisu qəsəbəsində yerləşən "Dənizçi" İM-in ərazisində piyada yollarına asfalt-beton örtüyünün vurulması xidmətinin satın alınması məqsədilə açıq

### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 09 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

pirotexniki vasitələrin utilizasiyası (məhv edilməsi) üzrə xidmətlərin satın alınması məqsədilə açıq

### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 05 dekabr 2022-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küç., 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

balansında olan "Şahdağ" gəmisinin MAN D2842LE301 köməkçi mühərrikin ehtiyat hissələrinin satın alınması məqsədilə açıq

### müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 12 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəh, Mikayıl Useynov küç. 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071.**

***Tender komissiyası***

## E L A N

## "Kainat" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

"Kainat" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədrinin vəzifədən azad edilərək həmin vəzifəyə yeni şəxsin təyin edilməsi ilə bağlı cəmiyyətin səhmdarlarının növbədənkənar Ümumi Yığıncağının keçirilməsi **10 yanvar 2022-ci il tarixə, saat 12:00-a** təyin edilmişdir.

Ünvan: Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi, 2 ünvanında "Səyyarmextikinti" ASC-nin inzibati binası.

Səhmdarların həmin yığıncaqda iştirakı zəruridir.

***İdarə Heyəti***

# ABŞ-də odlu silahdan ölüm halları rekord səviyyəyə çatıb

Birləşmiş Ştatlarda son 31 ildə 1,1 milyondan çox insan qətlə yetirilib





Amerika Birləşmiş Ştatlarında kütləvi insan tələfatı ilə nəticələnən atışmalar qeyri-adi hal deyil. Özəl şəxslər tərəfindən silah satışı, saxlanması və istifadəsi qaydaları federal qanunlarla tənzimlənir.

Federal Təhqiqatlar Bürosunun məlumatına görə, 2021-ci ildə ABŞ-də ictimai yerlərdə atışmaların sayı 2020-ci illə müqayisədə 52,5 faiz artıb. Ümumilikdə, 1990-2021-ci illər arasında 1,1 milyondan çox amerikalı odlu silahdan dünyasını dəyişib.

Ötən il ABŞ-də odlu silahdan ölüm nisbəti son 30 ilin ən yüksək səviyyəsinə çatıb. Bu barədə Harvard Tibb Məktəbinin hesabatını dərc edən "JAMA Network Open" jurnalı məlumat yayıb.

Hesabatda bildirilir ki, 2005-ci ildən bəri ölənlərin sayı durmadan artıb. 2019-cu illə müqayisədə ölüm nisbəti 20 faiz çoxalıb. Odlu silahla öldürülən qadınların sayı 71 faiz, qətlə yetirilən kişilərin sayı isə 45 faiz artıb.

Tədqiqatın müəlliflərinin dediyinə görə, ABŞ-də hər gün 100-dən çox insan odlu silahdan istifadə nəticəsində həlak olur. ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin (CDC) məlumatına görə, ötən il bu səbəbdən 48,953 nəfər ölüb ki, bu da CDC-nin statistika toplamağa başladığı 1981-ci ildən bəri ən yüksək rəqəmdir.

Məlumatlar göstərir ki, odlu silahdan istifadə nəticəsində ölüm hallarının artması xüsusilə son illərdə sürətlənmişdir. Belə ki, 2004-cü ildə əhalinin hər 100 min nəfərinə 10,1 ölüm, 2021-ci ildə isə artıq hər 100 min nəfərə 14,7, yəni 45,5 faiz çox ölüm düşür. Eyni zamanda 2019-cu ildən 2021-ci ilə qədər COVID-19 pandemiyasının mövcud olduğu dövrdə ölüm hallarının artımı 20 faiz təşkil edib.

Harvard Tibb Məktəbinin əməkdaşı Erik Fliqler qeyd edir ki, pandemiya zamanı ölüm nisbətinin hansı səbəbdən artdığını heç kim dəqiq bilmir, lakin buna təsir edə biləcək bir neçə amil var. Məsələn, pandemiya bir çox insanın iş yerlərini itirməsinə, ailələrin dağılmasına, şəxsi həyatların pisləşməsinə, stress və ruhi xəstəliklərin artmasına, silah satışının çoxalmasına və s. səbəb olub. Belə ki, pandemiyanın başlanğıcında ABŞ-də 393 milyon odlu silah şəxsi əllərdə idi və Amerika ev təsərrüfatlarının 40 faizi buna sahib idi.

Pandemiya zamanı əlavə 7,5 milyon insan silah əldə edib və hazırda əvvəllər silahı olmayan 5,4 milyon ailənin silahı var.

Bundan əvvəl Vaşinqton Universitetinin yaydığı hesabatda qeyd olunur ki, 2019-cu ildə 6 milyondan çox amerikalının üstündə hər gün odlu silah olub. Bu, 2015-ci illə müqayisədə iki dəfə çoxdur.

Bu artım ABŞ-nin daha çox ştatının ictimai yerlərdə silah gəzdirməyi asanlaşdıran qanunlar qəbul etməsi ilə bağlıdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# DSX-nin hərbi qulluqçusunun özünə xəsarət yetirməsi ilə bağlı cinayət işi açılıb

Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Nuriyev Kənan Hafiz oğlunun odlu silahdan atəş açmaqla özünə xəsarət yetirməsi barədə Şəmkir Hərbi Prokurorluğuna məlumat daxil olub.

Bu barədə Hərbi Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Daxil olmuş məlumat əsasında Şəmkir Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb və digər hərəkətlər icra olunub.

Fakt üzrə Şəmkir Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir. Qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin ediləcək.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6484**
**Sifariş 3386**
**Qiyməti 40 qəpik**